Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

25
İYUN
2020-ci il
№ 101 (4232)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYAN RUSİYA İLƏ TAM FİASKODA - QAZ ENDİRİMİNƏ YOX, «METSAMOR» KREDİTİNƏ YOX, İNDİ DƏ VLADİMİRDƏ FAŞİST NJDE «GORBAGOR» EDİLİR...

■ səh. 5 ■

Avroparlamentin ərazi bütövlüyü barədə qətnaməsi Avropada Ermənistanın "Qarabağ siyasətinə" öldürücü zərbə sayılır...

■ səh. 8 ■

Azərbaycan düşməni dronlarla məhv edəcək - məşhur "Forbes" nəşri Ordumuzun arsenalındakı dron-kamikadzelərdən yazdı

■ səh. 9 ■

İcra başçıları milyonluq korrupsiyalarla bir-bir tutulur, icra məmurları hələ dərs götürmür - Abşeron, Akif Əliyev nümunəsi...

■ səh. 6 ■

Paşinyançı deputatların "Facebook"da Baş naziri müdafiədən çəkilməsi erməni mediasında əsas mövzulardan biri kimi...

■ səh. 5 ■

Erməni faşizminin dünyaya təhdidi artır - Paşinyanın konstitusiya dəyişikliyi üçün simvolik bir tarix seçməsi də diqqətdən qaçmadı

■ səh. 10 ■

Azərbaycan dünya dövlətləri arasında pandemiyadan daha az zərər çəkən ölkələr sırasında...

■ səh. 12 ■

Evdə koronavirusdan müalicə olunan xəstələr üçün arbidol və vitamin C problemi...

■ səh. 14 ■

Bankların qabağı koronavirus üçün ən risqli yerlərə çevrilməyə başlayır - onlayn növbəlik tətbiq olunsa...

■ səh. 14 ■

■ səh. 3 ■

Azərbaycanın dünyada ilk onlayn qəzeti Fransada təsis edildi - "Trend" beynəlxalq fəaliyyət müstəvisində...



■ səh. 13 ■

Dil qaydalarımızın pozulmasına görə hüquqi məsuliyyət proseduru rəsmən başladı - Dilimizin əsas himayəçisi hansı dövlət orqanı olacaq? MŞ-nin də adı çəkilir...





■ səh. 4 ■

## Azərbaycanda icra başçısından 10 min manatı şantajla alan «jurnalist» siyasi məhbus?..



Paşinyanın Şuşada inauqurasiya keçirdiyi gün Azərbaycan Ordusunun fövqəladə hazırlıqlarının strateji dəyəri - Zakir Həsənov fakt açdı...

■ səh. 3 ■

Guya pandemiya olmasaydı, radikal müxalifət yüz minlərlə adamı Bakı küçələrinə çıxaracaqdı? - Yeni uğursuz ideoloji tezis...

■ səh. 4 ■



«Vatikandakı Ermənistan səfirliyinin sirri» - Paşinyan demokratiyasının iflası dünya mediasında...

■ səh. 7 ■

Hökumət üzvlərinin küçədə maska paylamasının mənası(sızlığı) - Paşinyan hökumətinin hərəkətlərini Azərbaycana nümunə çəkənlərə cavab...

■ səh. 11 ■

# Prezidentin və birinci xanımın səfərləri Gəncənin infrastrukturunda yeni dəyişikliklərə təkan verdi...




**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhərinə səfər ediblər. Prezident və birinci xanım səfər çərçivəsində "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun və Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışlarında iştirak ediblər.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin, Gəncə Dövlət Dram Teatrının yeni binasının və Gəncə İdman Sarayının tikintisi ilə tanış olublar.

Gəncə şəhərinin M.A.Abbaszadə küçəsində Gəncəçay çayı üzərindəki körpü də bərpadan sonra istifadəyə verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Həmin gün dövlət başçısı Gəncə şəhərində infrastrukturun inkişaf etdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalayıb. Belə ki, Prezident İlham Əliyev Gəncədə yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı Azərbaycan Prezidentinin ehtiyat fondundan ilkin olaraq 2,0 (iki) milyon manat, Gəncə Dövlət Dram Teatrının 500 yerlik yeni binasının tikintisinin davam etdirilməsi məqsədilə 13,8 milyon (on üç milyon səkkiz yüz min) manat, Gəncə şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə 5,0 (beş) milyon manat, Gəncə şəhərində İdman Sarayının tikintisi üçün 3,0 (üç) milyon manat ayrılması ilə bağlı müvafiq sərəncamlar imzalayıb.

Maliyyə Nazirliyinə bu sərəncamlarda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamlardan irəli gələn digər məsələləri həll etmək tapşırılır.



## Azərbaycanda koronavirusa 590 yeni yoluxma, 265 nəfər sağaldı, 7 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 590 yeni yoluxma faktı qeydə alınıb, 265 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. İndiyədək ölkədə, ümumilikdə, 14 305 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 7 768 nəfər müalicə olunaraq sağalıb, 174 nəfər vəfat edib, 6 363 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 103, ötən müddət ərzində isə, ümumilikdə, 441 961 test aparılıb.

## Türkiyə karantin qaydalarını daha çox yumşaltdı - çox ağır bədəl ödədi...



**Türkiyənin Karabük vilayətinin ən böyük yaşayış yeri olan Cumayanı bölgəsi pandemiya dövrü ərzində ikinci dəfə karantinə alınıb.**

Baki-xeber.com-un AZƏRTAC-dan əldə etdiyi xəbərə görə, COVID-19-a yoluxma hallarının yenidən artması səbəbindən bölgəyə giriş-çıxışlar qadağan olunub. Ümumi əhali sayı beş min nəfər olan bölgədə mindən çox yoluxma faktı qeydə alınıb. Ölkədə yumşalma tədbirlərinin başladığı son bir ay ərzində bu bölgədə COVID-19-a yoluxanların sayının dəfələrlə artdığı müşahidə olunub.

Xatırladaq ki, bu həftəsonu Türkiyə ərazisində növbəti dəfə komendant saatının elan ediləcəyi gözlənilir.

# Baş prokuror Kamran Əliyev Almaniyanın ölkəmizdəki səfiri ilə görüşdü

**İyunun 24-də Baş prokuror Kamran Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqlə görüşüb.**

Qonaqları salamlayan Baş prokuror ölkələrimiz arasında dərin tarixi köklərə malik münasibətlərin inkişafından söhbət açıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları barədə geniş məlumat verib.



Kamran Əliyev prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışaraq cinayətkarlıqla mübarizədə, xüsusən də korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla, habelə Avropa ölkələrinin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın əhəmiyyətini vurğulamaqla prokurorluq əməkdaşlarının ümumi peşə hazırlığının artırılması və təcrübə mübadiləsinin aparılması məqsədi ilə tərəfdaş ölkələrin, o cümlədən Almaniyanın dövlət qurumları və təhsil müəssisələri ilə ikitərəfli əlaqələrin inkişafına böyük önəm verildiyini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Volfqanq Maniq ölkəmizdə görülən işləri, aparılan məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirib, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yaranmış yeni idarələrin fəaliyyət istiqamətləri, habelə prokurorluq orqanlarına qəbul proseduru, gənc prokurorluq əməkdaşlarının peşə hazırlığı səviyyələrinin artırılması məsələləri ilə dərindən maraqlanaraq, xalqlarımız və ölkələrimizin mənafeləri, ikitərəfli münasibətlərin inkişafı naminə, habelə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq orqanları ilə əməkdaşlıq istiqamətində münasibətlərin inkişaf edəcəyinə səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumatın verilməsi təmin edilməklə, bir sıra digər məsələlər müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb.

# İran da peşmançılıq yaşayır - karantini bu tezlikdə yumşaltmaqla böyük səhvə yol verdik...

**İranda koronavirusun yayılması və ölüm hallarının artması davam edir. Son 24 saat ərzində 2445 nəfər virusa yoluxub, 121 nəfər vəfat edib.**

Baki-xeber.com-un AZƏRTAC-dan aldığı xəbərə görə, bu barədə İranın Səhiyyə Nazirliyinin mətbuat katibi Səadət Sima Lari keçirdiyi gündəlik mətbuat konfransında məlumat verib. Onun sözlərinə görə, İranda yoluxanların ümumi sayı 209 min 970-ə, ölənlərin sayı isə 9863-ə yüksəlib. Xüsusi xəstəxanalarda müalicə alan 169 min 160 nəfər isə sağalaraq evə buraxılıb. İntensiv terapiyada yatan 2864 xəstənin vəziyyəti ağır olaraq qalır. İranda vəziyyətin belə ağır olmasını mütəxəssislər karantin tədbirlərinin vaxtından əvvəl yumşaldılması ilə əlaqələndirir və qeyd edirlər ki, infeksiyanın yayılmasının ikinci dalğası başlayıb. İran rəsmiləri karantin tədbirlərinin yenidən sərtləşdirilməsinin zərurət olduğunu bildiriblər.

# Paşinyanın Şuşada inauqurasiya keçirdiyi gün Azərbaycan Ordusunun fövqəladə hazırlıqlarının strateji dəyəri - Zakir Həsənov fakt açdı...

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov bu günlərdə verdiyi müsahibəsində Qarabağdakı qondarma qurumun "inauqurasiyası" zamanı Azərbaycan Ordusunun keçirdiyi genişmiqyaslı təlimlərlə bağlı bəzi məqamları açıqlayıb.**

*"Düşmən tərəfini ən çox narahat edən məsələlərdən biri təlimlərin maksimum döyüş şəraitinə yaxın bir ssenaridə keçirilməsidir"*

**İbrahim Rüstəmli:** *"Bu narahatlıq onun göstəricisidir ki, düşmən tərəf Azərbaycan Ordusu tərəfindən..."*



Onun sözlərinə görə, həmin gün keçirilən təlimlər ermənilərin və erməni lobbisinin ciddi narahatlığına səbəb olub: "Həmin vaxt Prezidentin tapşırığı ilə ordumuz planlı şəkildə irimiqyaslı təlimlərə başladı. Qısa müddət ərzində minlərlə əsgər, xeyli texnika təlimlərə cəlb edildi. Ermənilər təşvişə düşüb beynəlxalq qurumlara müraciət etməyə başladılar. Bunun özü də ermənilərin işğal siyasətinin beynəlxalq qurumlarda gündəmdə qalmasıdır. Onların general və siyasətçiləri başladılar çıxış etməyə və dedilər ki, Bakı bizə hədə-qorxu gəlir.

Hətta ABŞ-da hərbi mütəxəssislər dedilər ki, Azərbaycan Ordusunun təlimləri yeni üsullar, yeni taktikalarla həyata keçirilir. Erməni lobbisi də təşvişə düşüb, ermənipərəst senatorun vasitəsilə həm ABŞ Müdafiə Nazirliyinə, həm də Dövlət Katibliyinə müraciət edib demişdi ki, Azərbaycanı dayandırın. Bunu onlar görür, amma bəziləri görmür".

Bütün bu deyilənlərin fonunda, sözügedən hərbi təlim həmin gün hansı effekti verdi?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, qondarma "inauqurasiya" günü keçirilən təlimlər gərəkən səmərəni verdi: "Məsələ ondadır ki, həmin gün keçirilən təlimlər zamanı Azərbaycan Ordusunun arsenalında olan ən müasir silahlar sınaqdan keçirildi. Təlimlər yeni taktikaya uyğun həyata keçirildi. Ordumuz qarşı tərəfə göstərdi ki, məqam yaranan kimi, qısa müddət ərzində işğal altında olan ərazilər azad ediləcək. Düzdür, Azərbaycan hərbi təcavüzə məruz qalan ölkə olaraq problemin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Ancaq gedən proseslər onu göstərir ki, sülh danışıqları nəticə verməsə, torpaqların hərb yolu ilə azad edilməsi qaçılmazdır. Yəni Azərbaycan tərəfi sülhün tərəfdarı olduğunu bəyan etsə də, Ermənistan hakimiyyəti və bəzi dairələr Qarabağ kartını Azərbaycan əleyhinə daim istifadə etmək istəyirlər. Bu da münaqişənin hərb yolu ilə həllini qaçılmaz edir. Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev ordu quruculuğuna xüsusi önəm verir. Təsadüfi deyil ki, sözügedən təlimlərdən erməni tərəfi bərk narahat oldu. Bu narahatlıq onun göstəricisidir ki, düşmən tərəf Azərbaycan Ordusu tərəfindən torpaqların azad ediləcəyi günün uzaqda olmadığının fərqindədir. Onlar artıq get-gedə dərk edirlər ki, Azərbaycan işğalla barışmayacaq və hansı yolla olur-olsun, torpaqları azad edəcək. Dövlət büdcəsindən hər il orduya böyük həcmdə vəsait ayrılır. Bütün bunlarda məqsəd ordunun maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və döyüş hazırlığının, müdafiə qüdrətinin artırılmasıdır. Azərbaycan Ordusunun döyüş hazırlığı bir nömrəli məsələ kimi gündəmdədir. Nəzərə almaq lazımdır ki, təlimlər döyüş şəraitinə maksimum yaxın bir ssenaridə keçirilir. Düşmən tərəfini ən çox narahat edən məsələlərdən biri də məhz budur. Çünki təlimlər müasir hərbi tələblər çərçivəsində keçirilir".

Görünən odur ki, keçirilən təlimlər və təlimlərin formaları get-gedə düşmən tərəfini daha çox narahat edir. Təsadüfi deyil ki, bir sıra erməni ekspertləri əminliklə Azərbaycanın keçirdiyi təlimləri müharibəyə ciddi hazırlıq kimi dəyərləndirirlər.

*Vidadi ORDAHALLI*

# Azərbaycanın dünyada ilk onlayn qəzeti Fransada təsis edildi - "Trend" beynəlxalq fəaliyyət müstəvisində...

**Azərbaycan mediası dövrün çağırışlarına uyğun inkişaf etdikcə, öz fəaliyyət istiqamətlərini daha da genişləndirə və beynəlxalq aləmə çıxa bilir. Məlum olduğu kimi, Fransada "Trend" Beynəlxalq İnformasiya Agentliyinin (BİA) media layihəsi, lagazetteaz.fr onlayn qəzeti işə başlayıb.**

*"Dünyanın aparıcı ölkələrində azərbaycanlıların idarəsində olan KİV qurumları barədə danışanda..."*

**Müşfiq Ələsgərli:** *"İnanırıq ki, onun təşəbbüsü ilə qurulan lagazetteaz.fr də keyfiyyətli, peşəkar KİV qurumu kimi məşhurlaşa biləcək"*

Lagazetteaz.fr

Bu, Parisdə ofisi olan ilk Azərbaycan informasiya resursudur və Avropa istiqamətində media əlaqənin inkişafına, eləcə də Avropa ölkələrinin cəmiyyətləri səviyyəsində Azərbaycan barədə obyektiv reallıqların qavranmasının formalaşdırılmasına yönəlmiş pilot layihə olacaq.

Layihənin açılışını şərh edən Milli Məclisin deputatı, "Trend" BİA-nın baş direktorunun müavini Sevil Mikayılova bu hadisənin xüsusi əhəmiyyətini vurğulayıb:"Trend" BİA-nın təşəbbüsü olan yeni informasiya layihəsini yalnız alqışlamaq olar. Parisdə bu cür media resursun açılması və işləməsi bir çox məqamlara görə vacib əhəmiyyət daşıyır: ilk növbədə, bu, Fransa və digər fransızdilli ölkələrin cəmiyyətlərinin Azərbaycanda və ümumilikdə, regionda baş verən hadisələr barədə məlumatlandırılması baxımından aktualdır. Məsələn, Fransada ölkəmizin daxili və xarici siyasəti, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqları barədə dürüst və təhrifsiz informasiyanın böyük çatışmazlığı müşahidə olunur. Bundan başqa, layihə Azərbaycan-Fransa iqtisadi münasibətlərinin, mədəniyyət, elm, təhsil sahələrində əməkdaşlığın inkişafı kontekstində vacib əhəmiyyət daşıyacaq. Faydalı və aktual informasiyanın etibarlı mənbələrinin sayının artması siyasətçi və iş adamlarına, elm və mədəniyyət xadimlərinə ölkələrimizin və xalqlarımızın yaxınlaşması maraqlarına cavab verən düzgün qərarların qəbul olunmasına imkan verəcək.

Azərbaycan Beynəlxalq Frankofoniya Təşkilatının üzvü olan Afrika və Asiya ölkələrində bir sıra humanitar layihələr reallaşdırır, ona görə də bu ölkələrin auditoriyaları üçün də Azərbaycanda və regionda baş verən hadisələr barədə ilkin mənbədən məlumat əldə etmələri faydalı olacaq.

Qəzet Fransa və Azərbaycanın siyasi, iqtisadi, mədəni, sosial həyatının geniş spektri üzrə müxtəlif nəzər nöqtələrinin təqdim olunmasına açıq olacaq".

"Trend" BİA gələcəkdə Parisdəki ofisin iş miqyasını böyütməyi, Azərbaycanın onlayn nəşrinin tematik şəbəkəsini genişləndirməyi, lagazetteaz.fr bazasında yeni multimedia məhsulları təklif etməyi planlaşdırır. Bu, Azərbaycan resursuna Fransanın informasiya məkanında öz yerini tutmağa imkan verəcək.

Azərbaycanın beynəlxaq müstəviyə çıxan ilk onlayn qəzeti haqqında fikir bildirən JuHİ sədri, Azərbaycan Mətbuat Şurasının sədr müavini, tanınmış media eksperti Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə bunun əhəmiyyətini vurğuladı: "Öncə "Trend" İnformasiya Agentliyinin rəhbərliyini və orada çalışan peşəkar həmkarlarımızı təbrik edirəm. Böyük uğurdur və Azərbaycanımız üçün çox faydalıdır. Dünyanın aparıcı ölkələrində soydaşlarımıza məxsus, onların idarəçiliyi ilə fəaliyyət göstərən KİV qurumlarının olması çox vacibdir. Bunun əhəmiyyəti barədə həmişə danışmışıq, amma təəssüf ki, əhəmiyyətli nəticə əldə etmək mümkün olmayıb. Dünyanın aparıcı ölkələrində azərbaycanlıların idarəsində olan KİV qurumları barədə danışanda, adətən, fikrimiz 3 istiqamətə gedir: belə KİV qurumları ya yoxdurlar, ya olsalar da, məşhur deyillər, simvolik fəaliyyət göstərirlər. Mövcud olub məşhurlaşanlar da Azərbaycanın əleyhinə fəaliyyət göstərirlər. Azərbaycan dövləti, xalqı üçün xaricdə sistemli iş aparan KİV qurumu yox səviyyəsindədir.

Bu streotipləri dağıtmaq üçün planlı iş qurmaq, iradə, güc, əmək sərf etmək lazımdır. "Trend" məşhur, güclü, peşəkar komandaya malik KİV qurumudur. Dünyanın məşhur dillərində məlumat hazırlayıb yaymaq təcrübəsi var. Uzun illərdir bu yöndə fəaliyyət göstərir. Fəaliyyəti peşəkarlığı üzərində qurulub. İnanırıq ki, onun təşəbbüsü ilə qurulan lagazetteaz.fr də keyfiyyətli, peşəkar KİV qurumu kimi məşhurlaşa biləcək".

*İradə SARIYEVA*

# Azərbaycanda icra başçısından 10 min manatı şantajla alan "jurnalist" siyasi məhbus?..

## Azər Həsrət: "Çox biabırçı və ayıb olacaq bir vəziyyətdir"

**Mayın 13-də rüşvət alarkən həbs edilən jurnalist Əfqan Sadıqovun adını "siyasi məhbus" siyahısına salıblar. Onun həbsi ilə bağlı nümayiş olunan operativ çəkilişlərdən göründü ki, Əfqan Sadıqov Sumqayıtın icra başçısı Zakir Fərəcovu şantaj edərək 10 min manat pulu alarkən yaxalanıb.**

Binəqədi Rayon Məhkəməsi onunla bağlı dörd aylıq həbs qətimkan tədbiri seçib və apelyasiya məhkəməsi jurnalistin şikayətini təmin etməyib. Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, "Azel TV" xəbər portalının baş redaktoru Əfqan Sadıqov və "Xəbərfakt.az" internet xəbər portalının baş redaktoru Sakit Muradov vəzifəli şəxslərdən tələb etdikləri 10 min manatı alarkən cinayət başında yaxalanıblar. Maraqlıdır ki, ilkin anda belə bütün görüntülərdə cinayəti sübuta yetirilən bu şəxsi bəzi dairələr "siyasi məhbus" kimi qələmə verməyə çalışır. "Azərbaycanda Siyasi Məhbusların Azadlığı Uğrunda İttifaq" "Azel" TV saytının təsisçisi Əfqan Sadıqovun adının siyahıya salındığını deyib. Bildirilir ki, siyahı AŞPA-nın 2012-ci il tarixli 1900 saylı qətnaməsində müəyyən edilmiş meyarlara əsasən tərtib edilib. Tərtibçilər Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və "Siyasi Məhbusların Monitorinqi Mərkəzi" İctimai Birliyinin rəhbəri Elşən Həsənovdur.

Əfqan Sadıqovun adının belə bir siyahıya salınmasına media cameəsinin münasibəti necədir? Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Leyla Yunus tipində adamlar Azərbaycandakı hər cür ünsürün arxasınca düşüb, ölkəmizi, dövlətimizi gözdən salmaq üçün fürsət gözləyirlər:"Ona görə də, jurnalist fəaliyyətinə görə deyil, konkret cinayət faktı ilə tutulan bu adamı da siyahıya salıb, "siyasi məhbus" kimi qələmə verməyə çalışırlar. Biz istintaqın nəticəsini gözləyirdik. Lakin ilkin məlumatları televiziya kanallarından seyr etdik. Konkret məbləğdə vəsaitin alındığı nümayiş edildi. Əfqan Sadığov həmin pulu icra hakimiyyətindən şantaj vasitəsilə alırdı. Dözümlü yanaşıb, istintaqın bitməsini gözləmək fikrindəydik. Lakin Leyla Yunus tipindəki adamlar heç nəyi gözləmək istəmir. Onlar artıq öz qərarlarını veriblər. Həmin adamı "siyasi məhbus" elan ediblər. Təbiidir ki, məqsədləri belə adamların adı üzərindən böyük məbləğdə qrantlar almaqdır.



Çox biabırçı və ayıb olacaq bir vəziyyətdir. Hüquq müdafiəsi olan kəslər əslində istintaqın nəticəsini gözləməliydilər. Yəqin ki, istinataqın əlində bizə məlum olmayan daha ciddi faktlar da var. Yoxsa istinaq onu həbs etməzdi. Televiziyada göstərilənlər bəlkə də həmin faktların hamısı deyil. Mütləq nəticəni gözləyib qərar verilməliydi. Bunlar isə hər yoldan ötəni siyasi məhbus siyahısına salmağa hazırdırlar. Bu da onların əsl mahiyyətini üzə çıxarır".

Azərbaycan hakimiyyəti bəyan edib ki, ölkədə heç kimi siyasi mənsubiyyətinə görə həbs etmirlər. Bu baxımdan da "siyasi məhbus" anlayışı hakimiyyət tərəfindən qəbul olunmur. Əfqan Sadıqov nümunəsindən görünür ki, Leyala Yunus və onun kimilər istənilən adamın adını həmin siyahıya salıb alverlərini etməyə qadirdirlər.

***Məhəmmədəli QƏRİBLİ***

# Guya pandemiya olmasaydı, radikal müxalifət yüz minlərlə adamı Bakı küçələrinə çıxaracaqdı? - Yeni uğursuz ideoloji tezis...

## Arzuxan Əlizadə: "Bəs o zaman nə mane olurdu bu adamların "aktiv" fəaliyyətinə?"

**Radikal müxalifət təmsilçiləri deyirlər ki, koronavirus pandemiyası ölkənin hər sahəsinə mənfi təsir etdiyi kimi, ictimai-siyasi fəaliyyəti də iflic vəziyyətinə qoyub. Azərbaycanda olan siyasi partiyalar bir çox tədbirini, geniş toplantılarını pandemiya səbəbindən təxirə salıblar.**



Mümkün etiraz aksiyalarının hamısı pandemiya səbəbindən təxirə düşüb.

Guya pandemiya olmasaydı, onlar daha yaxşı təşkilatlanardılar və ölkədəki proseslərə təsir imkanı əldə edəcəkdilər. Məgər radikal müxalifətin keçirdiyi aksiyalara gələnlər olurdu ki? Əksər halda aksiyaya gələnlər olmurdu. Aksiyaya adam çıxarmaqdan ötrü radikallar min hoqqadan çıxırdılar. Ancaq yenə də istədikləri nəticəni əldə edə bilmirdilər. Nəzərə alsaq ki, radikalların təmsil olunduğu Milli Şuranın sıraları biabırçı formada seyrəlməkdə davam edir, ard-arda tərbiyəsiz görüntülü ünsiyyətləri yayılır, cəmiyyət bu qüvvələrə etimad göstərmir, o zaman onların bu "koronavirus arqumenti" nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, pandemiya səbəbindən ölkədə ictimai-siyasi fəaliyyətin iflic hala gəlməsini demək həqiqətdən çox uzaqdır: "COVID-19 koronavirus pandemiyasının insanların həyatı və sağlamlığı üçün yaratdığı ciddi təhlükə ilə yanaşı, hər sahədə bütün dünya düzənində törətdiyi fəsadlar göz önündədir. Belə bir dövrdə, yəni beynəlxalq səviyyəli tədbirlərin, dünya çempionatlarının, olimpiadaların təxirə salındığı və ya bir çox toplantının onlayn rejimdə həyata keçirildiyi dönəmdə mövcud durumun Azərbaycanın ictimai-siyasi həyatına da təsirsiz ötüşməməsində qeyri-adi bir şey yoxdur. Məsələn, AMİP olaraq biz də bu səbəbdən partiyanın növbəti qurultayının keçirilməsi də daxil olmaqla, bir çox tədbirimizi təxirə salmışıq, eləcə də digər cari toplantılarımızı və partiya üzvlərimizlə təmaslarımızı da daha çox onlayn rejimə keçirmişik. Əlbəttə ki, hazırkı vəziyyət geniş anlamda aktiv fəaliyyətin adi dövrdəkinə nisbətdə bir qədər zəifləməsinə səbəb olub. Amma pandemiya səbəbindən ölkədə ictimai-siyasi fəaliyyətin iflic hala gəlməsini demək həqiqətdən çox uzaqdır. Hesab edirəm ki, bu fikri səsləndirənlər daha çox öz bacarıqsızlıqlarına və fəaliyyətsizliklərinə bəraət qazandırmaq məqsədi güdürlər. Əgər söhbət dediyiniz radikal düşərgədən və özünü "milli" adlandıran qruplaşmadan gedirsə, bu adamların son dövr "fəaliyyətləri" də göz önündədir. Xüsusilə də son günlər ərzində yayılan videogörüntülər sayəsində bunların öz toplantılarında hansı məsələləri müzakirə etdikləri də artıq hər kəsə məlumdur. Bu adamlar yığışıb siyasi əxlaq və mədəniyyətdən kənar məsələləri qeybət səviyyəsində müzakirə etməyi siyasi fəaliyyət kimi anlayır və bu adla da insanlara sırımaq istəyirlərsə, birmənalı deyirəm ki, bu oyunlar artıq keçərli deyil".

> *"Bu fikri səsləndirənlər daha çox öz bacarıqsızlıqlarına və fəaliyyətsizliklərinə bəraət qazandırmaq məqsədi güdürlər"*

A.Əlizadə onu da qeyd etdi ki, cəmiyyət kimin kim olduğunu yaxşı bilir: "Azərbaycan cəmiyyətinin əksər hissəsi kimin hansı məqsədə qulluq etdiyini hər halda ayıra bilir. Pandemiyadan əvvəlki dönəmlərdə gündəmdə qalmaq üçün məqsədli şəkildə dəfələrlə mitinq təyin edib sonra təxirə saldıqları da hələ yaddan çıxmayıb. Bəs o zaman nə mane olurdu bu adamların "aktiv" fəaliyyətinə? Guya pandemiya olmasa, bunların ölkənin siyasi həyatına təsir etmək imkanları artacaqdı kimi nağıllara isə özlərindən və getdikcə seyrəlməkdə olan ətraflarındakı kiçik bir toplumdan başqa kimsə inanmır".

Radikal müxalifət öz uğursuz fəaliyyətini pandemiya ilə əlaqələndirməyə çalışsa da, bu, gülünc təsir bağışlayır. Çünki pandemiyadan əvvəl bu düşərgə nə vəziyyətdə idisə, indi də o vəziyyətdədir.

***Vidadi ORDAHALLI***

# Paşinyan Rusiya ilə tam fiaskoda - qaz endiriminə yox, "Metsamor" kreditinə yox, indi də Vladimirdə faşist Njde "gorbagor" edilir...

**Rusiya ilə Ermənistan arasında ziddiyyətlərin dərinləşməsi danılmaz faktdır. Artıq bu yalnız siyasi analizlərdə, yazılan məqalələrdə ifadə olunmur. İki ölkə arasında baş verən bəzi hadisələr Paşinyanın Rusiyaya yanalma siyasətinin tam fiaskoya uğradığını şərtləndirir.**



Paşinyan əvvəl Moskvada qələbənin 75-ci ildönümünə həsr olunan hərbi paradda iştiraka söz versə də, son anda bundan imtina edib. Onun imtinasını əsaslandıran elə bir ciddi səbəb göstərilməyib. Ekspertlər bunu məhz Paşinyanın Rusiya ilə münasibətlərindən doğan addım kimi qiymətləndirir.

Rusiya ilə münasibətlərin gərginliyini göstərən başqa faktlar da mövcuddur. Ermənistanın bütün cəhdlərinə rəğmən, bu ölkənin Rusiyadan aldığı qazın qiymətində hələ də hansısa güzəşt edilməyib və bunun yaxın perspektivdə edilməsinə inam da yoxdur. Buna görə Nikol Paşinyan iqtidarı ciddi tənqid hədəfinə çevrilib. Xüsusən də Rusiyanın Gürcüstana satdığı qazın qiymətini aşağı salması bu prosesi daha da qızışdırıb. Ermənistanın müxalif yönümlü təşkilatları bildirirlər ki, Rusiya özünə dost olmayan Gürcüstan üçün qazın qiymətini aşağı salır, amma strateji müttəfiqi Ermənistana münasibətdə qiyməti qaldırır. Bütün bunlar Ermənistanın baş naziri Nikol Paşinyanın yarıtmaz siyasəti ilə izah olunur. Xatırladaq ki, qaz məsələsi sonuncu dəfə Ali Avrasiya İqtisadi İttifaqının iclasında müzakirə predmeti olub. Burada Nikol Paşinyan qurumun ümumi enerji bazarının yaradılması və qaz qiymətlərinə vahid tariflə satılmasını təklif edib. Buna cavab olaraq Rusiya Prezidenti Vladimir Putin bildirib ki, vahid tarif yalnız vahid büdcə və vergi sisteminin olduğu bazarda tətbiq edilə bilər. Bütün bunlar göstərir ki, Ermənistanın xarici siyasətini Rusiya qəbul etmir.

Rusiya Ermənistanın daha bir xahişini yerə salıb. Buna görə də erməni mediası yenidən Rusiyanı hədəfə alıb. Ermənistanın "Metsamor" AES-in modernləşdirilməsi üçün Rusiya kreditinin bir hissəsindən imtina etməsi ilə bağlı məsələyə toxunan yerli mətbuat yazır ki, Ermənistanın suverenliyinə zidd tələblər olduqda, İrəvan Rusiyaya "yox" deməyi bacarmalıdır. Görünən budur ki, Rusiya Ermənistandakı "məxməri inqilab"dan sonra İrəvanla münasibətləri suverenlik əsasında qurmağa başlayan oyun qaydalarını qəbul etmir. Kreml Ermənistana öz təhlükəsizliyinə təhdid kimi baxır.

Göründüyü kimi, erməni mediasında anti-Rusiya isterikası yenidən qabarır. Ermənistana növbəti zərbə isə Rusiyadakı antifaşistlərdən gəlib. Artıq görünür ki, Ermənistandan kənarda da bu ölkədə faşizmin çiçəklənməsindən duyulan narazılıq artır. Məsələn, Rusiyanın Vladimir şəhərində "Stopfaşizm" vətəndaş təşəbbüsünün üzvləri şəhər meriyasına müraciət edərək, İkinci Dünya müharibəsində faşistlərlə əməkdaşlıq etmiş Qaregin Njdenin Vladimir həbsxanasının qəbiristanlığındakı boş məzarının yığışdırılmasını istəyib. Təşəbbüsün üzvləri bildirib ki, Njdenin boş məzarı son illərdə erməni diasporunun nümayəndələri tərəfindən ildə bir neçə dəfə anım məqsədilə ziyarət olunur. Qeyd olunub ki, Njdenin boş məzarı faşizmin qəhrəmanlaşdırılması baxımından istifadə olunur. Bir daha qeyd edək ki, Njde İkinci Dünya müharibəsinin sonunda SSRİ xüsusi xidmət orqanları tərəfindən ələ keçirilmiş və faşistlərlə əməkdaşlığını etiraf etmişdi. Törətdiyi cinayətlərə görə Vladimir şəhər həbsxanasına göndərilən Njde ölümündən sonra həbsxana ərazisində dəfn edilmişdi. 1980-ci illərdə bir qrup şəxs onun qalıqlarını Ermənistana apardı. Amma Vladimir həbsxanasının qəbiristanlığında boş məzarı hələ də durur. Bu isə artıq etirazlar yaradır. "Stopfaşizm" üzvləri xatırladıb ki, 2019-cu ildə Rusiyanın Armavir şəhərində erməni kilsəsinin ərazisində Njdenin xatirə lövhəsi yerli deputat tərəfindən qara rəngə boyanmış, daha sonra ictimai etirazlar nəticəsində lövhə sökülmüşdü. Qeyd edək ki, abidə ilə bağlı proseslər Azərbaycanın bu məsələni qabartmasından sonra aktuallaşdı. Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyev ötən ilin oktyabr ayında MDB Dövlət Başçıları Şurasının iclasında müharibə illərində Azərbaycan xalqının rolunu, MDB liderlərinin dəfələrlə faşistlərin qəhrəmanlaşdırılmasına qarşı çıxış etdiklərini xatırlatmışdı.

Bütün bu hadisələr göstərir ki, özlərini Rusiyanın strateji müttəfiqi sayan Ermənistanı Moskva bacardığı qədər küncə sıxmaqda maraqlıdır.

Hiss edilir ki, artıq Paşinyan Moskvanın təzyiqlərinə tab gətirə bilmir. Bu özünü Rusiyanın dəstəklədiyi siyasətçilərlə bağlı son məhkəmə qərarlarında da göstərdi. Eks-prezident Robert Köçəryan azad edildi, parlamentdəki fraksiya rəhbəri Tsarukyanın həbsinə məhkəmə qərar verməkdən imtina etdi. Bu mənzərə Ermənistan üçün yaxşı nəsə vəd etmir.

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyançı deputatların "Facebook"da Baş naziri müdafiədən çəkilməsi erməni mediasında əsas mövzulardan biri kimi...

## *Elman Nəsirov: "Belə vəziyyətin yaranması iki il əvvəlki dövrlə müqayisədə Paşinyanın reytinqinin kəskin şəkildə aşağı düşməsi ilə əlaqədardır"*

**Ermənistanın "Qraparak" qəzeti yazır ki, "Çiçəklənən Ermənistan" müxalif partiyasının sədri Qagik Çarukyanı parlament toxunulmazlığından məhrum etmək fikri əvvəlcə qeyri-real görünürdü, hətta ittihamçı prokuror da səbəblərin zəif olduğunu bildirmişdi. Bununla yanaşı, Baş prokuror işi bağlayıb və parlamentə təqdim edib.**



Qəzet yazır ki, paralel olaraq, Paşinyanın "Mənim addımım" fraksiyasının rəhbərliyi Çarukyanın fraksiyasının "üsyankar" üzvləri haqda "material" toplamaq üçün tapşırıq verib. Keçmişinə, şəxsi həyatına, otel biznesinə, qohumlarından "yeyilən" qrantlara, ləğv olunan şirkətlərə qədər informasiyalar "əldə edilib". Bir çox müxalifətçi haqda dəlil tapa bilməyiblər, ancaq onları mandatlarından məhrum etməklə hədələyiblər. Çarukyanın həbsi ilə bağlı tələb rədd edildikdən sonra "Mənim addımım" blokunun dar bir dairədəki nümayəndələri Konstitusiya Məhkəməsi məsələsində qeyri-konstitusiya səsverməsi və bundan sonrakı məsuliyyət barədə narahatlıqlarını ifadə edirlər.

Qəzüt yazır ki, diqqətçəkən məqam odur ki, "Mənim addımım" blokunun bir çox görkəmli nümayəndəsi Nikol Paşinyanın müdafiəsi üçün "Facebook"dakı kampaniyalarda iştirak etmir, səhifələrində heç nə yazmırlar. Hansı ki, bundan əvvəl onun tərəfdarları sosial şəbəkədə xüsusi fəallıq göstərirdilər.

Məlum olur ki, Paşinyanın "Mənim addımım" fraksiyasının üzvləri artıq onu müdafiə etmir və yaxud da bunda həvəsli deyillər. Bu tendensiya bir sıra sahələrə sirayət etdiyi kimi, artıq sosial şəbəkələrdə də özünü göstərir.

Maraqlıdır, ümumilikdə, bu nəyin göstəricisidir?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, belə vəziyyətin yaranması iki il əvvəlki dövrlə müqayisədə Paşinyanın reytinqinin kəskin şəkildə aşağı düşməsi ilə əlaqədardır: "Onun reytinqi heç vaxt olmadığı qədər düşməyə başlayıb. Ölkədə pandemiya böhranı Ermənistanda siyasi kataklizmləri tətikləyir. Ermənistan hər gün daha çox növbəti inqilaba yaxınlaşır. Ölkədə siyasi böhranı yaradan isə Paşinyanın yeritdiyi yarıtmaz siyasətdir. Erməni cəmiyyəti artıq görür ki, Paşinyan heç də demokrat deyil. O, demokrat libasında əsl diktatordur və siyasi opponentlərini bir-bir zorakı yolla səhnədən uzaqlaşdırır. Daha sonra onları həbsxanaya yollayır. İş o yerə gəlib çatıb ki, parlamentdəki çoxluqdan istifadə edərək əsas siyasi rəqibi Çarukyana qarşı da çox ciddi təzyiqlərə başladı. Onun deputat toxunulmazlığını ləğv etdi və indi də həbsi ilə bağlı konkret addımlar atır. Sözün həqiqi mənasında, bütün siyasi opponentlərini həbslə hədələyir. Ancaq onun imkanları və potensialı getdikcə tükənməkdədir. Xüsusilə də keçmiş prezident Robert Köçəryanın girov müqabilində azadlığa çıxması ona böyük zərbədir. İndi də parlamentdəki çoxluqdan istifadə edib Konstitusiyanı dəyişməklə bağlı addımlar atır. Ancaq bunun da səmərəsi yoxdur. İndi Ermənistanda bir sıra oriyentasiyalı siyasi qüvvələrin bəzi hallarda baxışları üst-üstə düşməsə də, Paşinyana qarşı mübarizədə birləşirlər".

*"Ən ciddi siqnal odur ki, onun sosial şəbəkədəki tərəfdarları artıq onu müdafiə etmirlər"*

E. Nəsirovun fikrincə, bütün bu proseslərin fərqində olan Paşinyanın tərəfdarları sosial şəbəkələrdə onu müdafiə etməkdən qaçırlar: "Ən ciddi siqnal odur ki, onun sosial şəbəkədəki tərəfdarları artıq onu müdafiə etmirlər. O, sosial şəbəkələrin fəal istifadəçisi idi və ona böyük dəstək var idi. İndi artıq onun sosial şəbəkədəki tərəfdarlarının da sıraları seyrəlməkdədir. Sanki iki ildən sonra xalq başa düşüb ki, çox böyük səhvə yol verib. Yəni küçə adamını hakimiyyətə gətiriblər. O üzdən, bu gün peşmançılıq hissi Ermənistan cəmiyyətində baş alıb gedir. Artıq ölkədə belə bir rəy yaranıb ki, Ermənistanda qanlı inqilab baş verə bilər".

**Artıq Paşinyanın ən yaxın tərəfdarları onun axırının çatdığını fərq etdikləri üçün, sosial şəbəkələrdə Baş naziri müdafiə etməkdən yayınırlar. Bu, əslində, Paşinyan üçün ciddi siqnaldır.**

***Vidadi ORDAHALLI***

# İcra başçıları milyonluq korrupsiyalarla bir-bir tutulur, icra məmurları hələ dərs götürmür - Abşeron, Akif Əliyev nümunəsi...

## *İlqar Hüseynli: "Ara sakitləşən kimi yenə öz işlərinə başlayırlar"*

**Son aylar ərzində ölkədə korrupsiya ilə bağlı yüksək vəzifəli şəxslərin həbsləri reallaşıb. Həmin əməliyyatların böyük əksəriyyəti icra qurumlarını əhatə edib və detalları nümayiş olunub. Maraqlıdır ki, baş verən hadisələrdən sonra icra qurumlarında hələ də korrupsiya və rüşvətxorluq hallarının olduğuna dair faktlar ortaya çıxır.**

Baş Prokurorluğun Abşeronda keçirilmiş əməliyyatla bağlı yaydığı rəsmi məlumatda bu barədə məlumat verilir.

Baş Prokurorluqdan verilən məlumata görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə Abşeron Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciətlər araşdırılıb. Bununla əlaqədar həyata keçirilən kompleks əməliyyat-istintaq tədbirləri ilə Abşeron Rayon İcra Hakimiyyəti Memarlıq və tikinti şöbəsinin müdiri (baş memar) Akif Əliyevin vətəndaşa tikinti üçün hər hansı layihə hazırlanmadan və Rayon İcra Hakimiyyətinə tikintiyə icazə üçün rəsmi qaydada müraciət olunmadan, müvafiq zəruri sənədləşmə aparılmadan tikinti aparılması üçün ümumi himayədarlığı həyata keçirəcəyini bildirib, Abşeron Rayon İcra Hakimiyyəti MKTB-nin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin rəisi Murad Əhmədovun vasitəsilə 3000 manat məbləğində pul vəsaitini rüşvət qismində istəyib almasına, daha sonra tikinti obyektində aparılan tikinti-quraşdırma işləri zamanı ümumi sahə həcminin artmasını bildirib əlavə olaraq vətəndaşdan 1500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına, Murad Əhmədovla aralarında bölməklə şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən edilib. Bununla əlaqədar Akif Əliyev 23 iyun 2020-ci il tarixdə Cinayət Məcəlləsinin 311.2-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona həmin maddədə nəzərdə tutulan ittiham elan olunub, Binəqədi Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətə həbs qətimkan tədbiri seçilib.



Həmçinin, istintaqla Murad Əhmədovun özünün Akif Əliyevlə yaxın münasibətlərinin olmasını, həmin münasibətindən istifadə edərək vətəndaşın Xırdalan şəhərində yerləşən "AAAF Park" yaşayış kompleksinin nəzdində 96 kv/m qeyri yaşayış sahəsinin texniki şərtlərinə dəyişiklik edilməsi və eskiz layihəsinin hazırlanması imkanına malik olmasını, bunun müqabilində 2500 manat məbləğində pul vəsaitinin rüşvət qismində verilməsinin zəruri olmasını yalandan bildirərək vətəndaşı aldatmasına, qeyd edilən məsələnin müsbət həlli üçün onun 1000 manat məbləğində pul vəsaitini ələ keçirməsinə, o cümlədən vətəndaşın xeyrinə edəcəyi hərəkətə görə sonuncunu 2500 manat məbləğində pul vəsaitini rüşvət qismində verməyə təhrik etməsinə şübhələr üçün əsaslar müəyyən edilib.

Müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində M.Əhmədov vətəndaşı aldadaraq 1000 manat məbləğində pulu 20.06.2020-ci il tarixdə ondan alarkən cinayət başında yaxalanıb.

Qeyd olunan qanunsuz əməllər məhkəmə qərarı əsasında keçirilmiş əməliyyat-axtarış tədbirlərinə uyğun olaraq audio-video çəkilişlərlə təsdiq olunub. Murad Əhmədov Cinayət Məcəlləsinin 32.4, 312.1 (rüşvət verməyə təhrik etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə 3 ay müddətə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə digər təqsirli şəxslərin, eləcə də baş vermiş qanun pozuntularında iştirakı müəyyən edilən rayon icra hakimiyyətinin əməkdaşlarının tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Ölkədə həyata keçirilən geniş antikorrupsiya tədbirləri dönəmində hələ də icra qurumlarında korrupsiya mexanizminin qalması nə ilə izah oluna bilər?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkədə korrupsiya mexanizminin kök atdığı və strukturlaşdığı qurumlar var: "Bunlardan əsası icra qurumlarıdır. Ancaq bu heç də o anlama gəlməməlidir ki, rüşvət və korrupsiya icra qurumlarından başqa heç yerdə yoxdur. İcra qurumlarının bu sahədə "müştəriləri" çox olduğu üçün onlarda daha çox nəzərə çarpır. Artıq həmin çevrədə olanlar bunu vərdiş halına çeviriblər. Özləri də mövsümə uyğun hərəkət edirlər. Tutqular sistemli hal alanda "müştərilərinə" deyirlər ki, bir az gözləsinlər. Ara sakitləşən kimi yenə öz işlərinə başlayırlar. Rüşvətin iki tərəfi var, o biri tərəfdə duranlar da bu məsələdə məsuliyyət daşıyırlar. Qanuni haqlarını tələb etmək əvəzinə, işlərini rüşvət müqabilində gördürməyə üstünlük verirlər. Son həbsdə icra hakimiyyətinin baş memarı həbs edildi. Xüsusilə də böyük şəhərlərdə əhalinin tikinti aparmaq üçün icra hakimiyyətinin memarlıq şöbəsinə daha çox işi düşür.

Şəhərsalmada arxitektura ilə bağlı icazələrin verilməsində memarlar əməlli-başlı "tas" müəyyənləşdiriblər. Adam var, qanuni yolla aldığı sənədli torpaq sahəsində belə ev tikə bilmir. Ona elə maneçiliklər törədirlər ki, məcbur qalıb canını rüşvət verməklə qurtarır. Ötən dəfə sizinlə müsahibədə də bildirdim ki, bu istiqamətdə köklü islahatlara ehtiyac var. Çox yaxşı olar ki, icra qurumları ilə bələdiyyələr arasındakı səlahiyyət bölgüsü başa çatdırılsın. Şəhərsalma və bu kimi məsələlər seçkili qurum kimi bələdiyyələrin sərəncamına verilsə daha yaxşı olar. Çünki həmin qurumlar seçicilər qarşısında bir öhdəlik daşıyır, daimi hesabat verməlidirlər. Köklü islahatlar olmayınca, köhnə kadrlar yenilənməyincə, yenilən kadrların özündə demokrtaik dəyərlərə hörmət formalaşmayınca biz belə halların yenə də şahidi ola bilərik".

Təəssüflə qeyd etməliyik ki, bəzi icra qurumları və orada çalışan rəhbər şəxslər bundan əvvəl aparılan əməliyyatlardan ciddi nəticə çıxarmayıblar. Ancaq bilməlidirlər ki, antikorrupsiya tədbirləri kimsəyə güzəşt etmir. Bundan yayınmağın yeganə yolu təmiz işləməkdir.

***Məhəmmədəli QƏRİBLİ***

# "Vatikandakı Ermənistan səfirliyinin sirri" - Paşinyan demokratiyasının iflası dünya mediasında...

**Artıq Qərb mətbuatı da Paşinyan rejiminin əsl mahiyyətini ifşa etməyə başlayıb. Belə ki, İtaliyanın "L'Opinione" qəzetində "Ermənistan: şübhəli demokratiya və Vatikandakı Ermənistan səfirliyinin sirri" sərlövhəli məqalə dərc edilib.**

*”Bu isə ona göstərilən dəstəyin dayandırılacağından xəbər verir”*

*Vüqar Rəhimzadə: ”Qərb ölkələrində Paşinyana olan inamsızlıq artıq mətbuatda da özünü göstərməkdədir”*



Məqalədə son dövrdə Ermənistanda baş verən mürəkkəb daxili siyasi proseslər, baş nazir Nikol Paşinyanın hakimiyyətin mənimsənilməsi istiqamətində atdığı addımlar, təhlükəsizlik qurumlarının rəhbərlərinin son istefaları, konstitusiyaya son mübahisəli dəyişikliklərin qəbulu, hakim rejimin siyasi opponentlərə qarşı həyata keçirdiyi təqiblər, Ermənistanın ikinci və üçüncü prezidentləri və onların ailə üzvlərinin, o cümlədən sabiq prezident Serj Sarkisyanın kürəkəni, Ermənistanın Vatikandakı sabiq səfirinə qarşı açılmış istintaq işləri, müxalifət tərəfindən baş nazir və həyat yoldaşına qarşı qeyri-qanuni iqtisadi fəaliyyətlə bağlı irəli sürülən ittihamlar, hökumətin yarıtmaz fəaliyyətinin Ermənistanda ağır sosial-iqtisadi vəziyyətə, pandemiyanın ağır nəticələrinə gətirib çıxarması və bu məsələlərə münasibətdə beynəlxalq reaksiyalar barədə danışılıb.

Qeyd olunub ki, "məxməri inqilabdan" sonra Paşinyanın ölkədə həqiqi demokratiyanı bərqərar edəcəyinə olan ümidlər özünü doğrultmadı: "2018-ci ilin yazında məxməri inqilaba rəhbərlik edərək hərbi-xunta rejimini devirməklə beynəlxalq mətbuatda məşhurlaşan N.Paşinyan ölkədə həqiqi demokratiyanı bərqərar edəcəyi ilə bağlı beynəlxalq ictimaiyyətdə gözləntilər yaradıb. Lakin 2018-ci ilin dekabrında keçirilən parlament seçkilərindən sonra baş nazir kimi atdığı ilk addımlardan biri siyasi rəqiblərinə qarşı genişmiqyaslı təqiblərin başlanması olub.

Hazırda Cənubi Qafqaz regionunda koronavirus pandemiyası ilə bağlı ən pis vəziyyət Ermənistanda hökm sürür".

Görünən odur ki, artıq Qərb mətbuatı da Paşinyanın əsl simasını ifşa etməkdədir. Bu isə onu göstərir ki, Paşinyan Qərbdəki dayaqlarını da itirməkdədir.

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, artıq Qərb Paşinyanın bir naşı siyasi fiqur olduğunu dərk etməkdədir: "O ümumiyyətlə, siyasətçi hesab oluna bilməz. Ən azından ona görə ki, onun dövlət idarəçiliyi sahəsində təcrübəsi yoxdur. O naşı siyasətçi olmaqla yanaşı, həm də qeyri-ciddi xarakterə malik bir şəxsdir. Qərb ölkələrində Paşinyana olan inamsızlıq artıq mətbuatda da özünü göstərməkdədir. Bunun nəticəsidir ki, İtaliya mətbuatında onun ötən iki ildəki uğursuz idarəçiliyi ilə bağlı geniş yazı dərc olubub. Bu əslində ona işarədir ki, artıq Qərb Paşinyana olan dəstəyinə yenidən baxmaq istəyir. Bu isə ona göstərilən dəstəyin dayandırılacağından xəbər verir. Nəticədə bütün bunlar Paşinyanın sonunu yaxınlaşdırır.

Nəzərə almaq lazımdır ki, Qərbin Paşinyana bəslədiyi ümidlər özünü doğrultmadı. Belə olan halda əlbəttə ki, Paşinyanın tənqid hədəfinə çevrilməsi gözlənilən idi".

Qərb mətbuatında Paşinyanla bağlı tənqidi yazıların bundan sonra daha da artacağı gözlənilir. Çünki onun son aylar artan anti-demokratik idarəçilik fəaliyyəti baş nazirə qarşı güclü anti-patiya yaradıb.

***Vidadi ORDAHALLI***

# Qonşu Braziliya və Kolumbiyadan qayıdan virus daşıyıcıları prezident Maduronu misilsiz fövqəladə addıma sövq etdi...



**Venesuela Prezidenti Nikolas Maduro ölkənin böyük şəhərlərində koronavirus infeksiyasının "təhlükəli həddə çatması" haqqında xəbərdarlıq edib. Prezident bu haqda ölkədə yoluxma hallarının sayı 4000-i aşandan sonra bəyanat verib.**

Baki-xeber.com AZƏRTAC-a istinadla xəbər verir ki, Nikolas Maduro koronavirusun bu qədər geniş yayılmasını venesuelalıların qonşu Kolumbiya və Braziliyadan qayıtması ilə izah edib. Koronavirus pandemiyası başlanandan bəri 70.000-dən çox venesuelalı öz ölkəsinə qayıdıb. Buna görə N.Maduro əhalini COVID-19 ilə mübarizə üçün önləyici karantinə riayət etməyə çağırıb. Yoluxanlar arasında gənclər də çoxdur. Bazar ertəsi Venesuela yeni tipli koronavirusun yayılmasına qarşı mübarizə məqsədilə ölkənin 24 ştatından 10-da, o cümlədən paytaxt Karakasın ən böyük dairəsi olan Libertador bələdiyyəsində tətbiq edilmiş karantin rejimini gücləndirib. Supermarketlər, apteklər gündə cəmi bir neçə saat işləyir. Ölkədə daxili və beynəlxalq nəqliyyat əlaqəsi məhdudlaşdırılıb.

Qeyd edək ki, Venesuelada koronavirusa yoluxanların sayı 4048 nəfərə, bu səbəbdən ölənlərin sayı 35 nəfərə çatıb.

# Daha bir ölkə karantin qaydalarını vaxtından qabaq yumşaltmanın çox ağır nəticələrini gördü - Ukraynanın ağır günləri...



**Aprelin 20-dən bu günə qədər Ukraynada aktiv COVID-19 xəstələrinin sayı 386 faiz artaraq 20.083 nəfərə çatıb.**

Baki-xeber.com AZƏRTAC-a istinadla xəbər verir ki, bu fakt Ukrayna İctimai Sağlamlıq Mərkəzi tərəfindən elan edilib. Orta hesabla əhalinin hər 100 min nəfərinə 48 xəstə düşür. Bu, nisbətən yüksək göstəricidir. Xəstələnməsi təsdiq edilmiş aktiv xəstələrin sayının gündəlik artımı əvvəlki ilə müqayisədə 4,1 faiz yuxarı olub. Xəstələnənlər arasında qadınlar 57,6 faiz, 30-69 yaşlı insanlar 72,5 faiz təşkil edir. İyunun 23-ü üçün olan məlumata görə, Ukraynada laboratoriya tədqiqatları ilə təsdiq edilmiş 38.074 nəfər COVID-19 xəstəsi var. Onlardan 833 nəfəri son gün ərzində aşkar edilib. Sağalanların sayı artaraq 16.956 nəfərə çatıb (44,5 faiz), 1.035 nəfər ölüb (2,7 faiz). Qeyd edək ki, Ukraynada son 2 həftədə koronaviruslu xəstələrin nisbətən böyük birgünlük artımı müşahidə olunur. Ukrayna hökuməti, o cümlədən Səhiyyə Nazirliyi hesab edir ki, bu artımın əsas səbəbi karantin məhdudiyyətlərinin zəiflədilməsi və əhalinin müəyyən edilmiş qaydalara riayət etməməsidir.

# Avroparlamentin ərazi bütövlüyü barədə qətnaməsi Avropada Ermənistanın "Qarabağ siyasətinə" öldürücü zərbə sayılır...

**Elşən Mustafayev:** *"Avropa Parlamentinin bu qətnaməsi beynəlxalq aləmdə ölkəmizin haqlı mövqeyinin daha da möhkəmlənməsinə səbəb olan növbəti diplomatik uğur kimi qiymətləndirilə bilər"*

**Avropa Parlamenti "Avropa Parlamentinin iyun sammiti ərəfəsində Aİ Komissiyasına və Komissiyanın vitse-prezidenti, Aİ-nin Şərq Tərəfdaşlığı Proqramı üzrə xarici siyasət məsələləri və təhlükəsizlik üzrə Ali Nümayəndəsinə tövsiyə" adlı qətnamə qəbul edib.**

Sənəd Avropa Parlamentinin Litvadan olan deputatı Petras Auştreviçyus tərəfindən həmməruzəçilər Radoslav Tsikorski, Anna Fotıqa (hər ikisi Polşa XİN-in keçmiş rəhbərləri olub), Attila Ara-Kovaç (Macarıstan) və Marketa Qreqorovanın (Çexiya) iştirakı ilə hazırlanıb.

Sənədin preambulunda Avropa Parlamentinin 2010-cu il mayın 20-də qəbul edilmiş "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələblər" adlı qətnaməsinə istinad edilir. Bu qətnamənin 8-ci və 10-cu bəndlərində erməni qüvvələri tərəfindən tutulmuş ərazilər "işğal edilmiş ərazilər" adlandırılıb.

Avropa Parlamentinin yeni qətnaməsində də, 10 il əvvəlki sənəddə olduğu kimi, Ermənistan tərəfin Qarabağ münaqişəsinin həllində israr etdiyi "təyini-müqəddərat hüququ" barədə bir kəlmə belə yoxdur. Sənəddə həmçinin qeyd edilir ki, Şərq Tərəfdaşlığı ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü hələ də həll edilməmiş regional münaqişələr, xarici təcavüz və həmin ölkələrin bəzilərinin işğalının davam etməsi ucbatından pozulub.

Qətnamənin başqa bir bəndində xarici qoşunların işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılması barədə çağırış var. Bu bənd ərazilərində işğalçı qoşunların dislokasiya edildiyi "Şərq Tərəfdaşlığı"nın iştirakçısı olan bütün ölkələrə və deməli, əraziləri Ermənistan tərəfindən işğal edilmiş Azərbaycana da aiddir.

Sənəddə Avropa İttifaqının Şərq Tərəfdaşlığının iştirakçısı olan ölkələrin "beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində" suverenliyini, ərazi bütövlüyünü və siyasi müstəqilliyini dəstəklədiyi qeyd edilir.

Göründüyü kimi, Avropa Parlamentinin növbəti qətnaməsində də Azərbaycanın ərazi bütövlüyünə tam dəstək ifadə olunur və Ermənistanın işğalçı siyasəti ifşa edilir. Bunu Ermənistan diplomatiyası üçün növbəti zərbə saymaq olarmı?




Azərbaycan Milli İstiqlal Partiyasının beynəlxalq məsələlər üzrə katibi Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, Avropa Parlamentinin Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəyinə dair qəbul etdiyi ilk mötəbər sənəd deyil: "Son vaxtlar Avropa İttifaqının bütün institutlarında ərazi bütövlüyü və milli suverenlik məsələsinə münasibətdə vahid yanaşma müşahidə olunur. Bu il Avropa İttifaqının ayrı-ayrı rəsmi və səlahiyyətli qurumları səviyyəsində 3 fundamental sənəd qəbul olunub ki, onların da hər birində ərazi bütövlüyünə hörmət ifadə olunur. Eyni zamanda Aİ-nin, xüsusilə Azərbaycana münasibətdə "ərazi bütövlüyü" anlayışının konkret parametrləri açıqlanır. Aydın olur ki, Avropa Birliyinin Azərbaycanın ərazi bütövlüyünə dəstəyi məhz beynəlxalq səviyyədə tanınmış sərhədlər, yəni Dağlıq Qarabağ regionu ilə birlikdə olan ərazini nəzərdə tutur. Bu da nəticə etibarı ilə həmin sənədlərin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində hüquqi bazanın möhkəmlənməsinə xidmət edir. Aİ Xarici İşlər Nazirləri Şurasının 11 may 2020-ci il tarixində qəbul etdiyi "Şərq Tərəfdaşlığının gələcəyi ilə Yekunlar" sənədində Aİ ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq hüquqa olan sadiqliyini ifadə edib. Sonuncu sənəddə Avropa İttifaqının sırf ərazi bütövlüyü ilə bağlı prinsipial mövqeyini əks etdirən bir sıra ciddi bəndlər yer alıb - ilk növbədə erməni silahlı birləşmələri tərəfindən tutulmuş ərazilər "işğal edilmiş ərazilər" adlandırılıb. Həmçinin, "Şərq Tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün hələ də həll edilməmiş regional münaqişələr, xarici təcavüz və həmin ölkələrin bəzilərinin işğalının davam etməsi ucbatından pozulduğu qeyd olunub.

Ən vacib məqam - sənəddə məhz xarici təcavüz nəticəsində baş verən münaqişələr zamanı insan haqlarının kobud şəkildə pozulduğu xatırladılır. Qətnamənin daha bir bəndində isə qeyd olunur ki, könüllü olaraq ilkin mövqelərə, yəni dövlət sərhədindən kənara çəkilməsələr, işğal olunmuş ölkənin qəbul edilmiş və bu gündən etibarən Avropa İttifaqı tərəfindən dəstəklənən öz ərazi bütövlüyünü güc yolu ilə təmin etmək hüququ var. Bu isə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün bütün mümkün variantlardan istifadə hüququna verilən dəstəkdir. Yəni ermənilərin daim istinad etdikləri "öz müqəddəratını təyin etmə hüququ" Şərq Tərəfdaşlığının iştirakçısı olan ölkələrə münasibətdə Avropa İttifaqının əsaslandığı prinsip kimi nəzərdə tutulmur.

Bütövlükdə Avropa Parlamentinin bu qətnaməsi beynəlxalq aləmdə ölkəmizin haqlı mövqeyinin daha da möhkəmlənməsinə səbəb olan növbəti siyasi və diplomatik uğur kimi qiymətləndirilə bilər".

**Qəbul edilən sənədin mahiyyəti ekspertlərin yanaşmasından görünür ki, Ermənistan beynəlxalq arenada növbəti diplomatik məğlubiyyətini alıb. Faktiki olaraq, Avropa İttifaqı dövlətlərin öz suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü və siyasi müstəqilliyini güclə təmin etmək hüququnu belə tanıyıb. Bu da diplomatiyamızın uğuru sayıla bilər.**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan düşməni dronlarla məhv edəcək - məşhur "Forbes" nəşri Ordumuzun arsenalındakı dron-kamikadzelərdən yazdı

**Bu gün yeni müharibələrin daha çox texnologiyalar üzərində köklənməsi heç kimə sirr deyil. Xüsusən də ən müxtəlif tələblərə cavab verən pilotsuz uçan aparatlardan (PUA) istifadə indi yeni savaşlarda getdikcə daha çox tətbiq edilməyə başlanan əsas metodlardan biridir. ABŞ Qüvvələri Mərkəzi Komandanlığının rəhbəri general Kennet Makkenzi bu fonda hava hücumlarının gələcəyinin məhz pilotsuz uçuş aparatlarına aid olacağını bəyan edir.**

Belə aparatlar həm düzənlik, həm də dağlıq ərazilərdə döyüşlər zamanı özünü tam doğruldub. Bu mənada, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mümkün yeni savaşda pilotsuz uçan aparatlardan geniş şəkildə istifadə olunacağı da şəksizdir.

Burada söhbət, xüsusən də kamikadze dronlardan gedir. Ekspertlər bildirir ki, gəzən döyüş sursatı tədricən dünyanın silah bazarını fəth edir və getdikcə yayılan təsirli bir vasitəyə çevrilir. Hava hücumu ilə hədəfləri məhv edən kamikadze dronlarının yaradılması üzərində fəaliyyət dünyanın bir çox ölkəsində davam edir. Müasir kamikadze pilotsuz cihazı partlayıcı maddələrlə təchiz olunan kiçik ölçülü uçan vasitədir. Hədəf aşkar edildikdə, belə bir cihaz avtomatik olaraq özütuşlanan mərmiyə çevrilir və yerüstü hədəfi məhv edir.

Gəzən döyüş sursatları Suriya ordusunun müxtəlif hərbi texnikalarına və Liviyada Xəlifə Haftar qüvvələrinə qarşı kütləvi və səmərəli tətbiq edən Türkiyə bu istiqamətdə böyük uğurlar qazandı. Azərbaycan da artıq analoji təcrübədən istfadədə maraqlı olduğunu bildirir. Özü də işğalçı Ermənistandan fərqli olaraq, Azərbaycan bu xüsusda kifayət qədər böyük nailiyyətlərə imza ata bilib. Ekspertlər hesab edir ki, bu fonda Azərbaycanın Ermənistana vurduğu zərbələr daha sarsıdıcı olacaq. Məşhur "Forbes" nəşri də bu xüsusda maraqlı qeydlər edərək yazır ki, Qafqazda yaddan çıxmış müharibə yeni impuls qazanır, çünki rəqiblər kəşfiyyat aparmaq və zərbə endirmək üçün getdikcə daha mükəmməl pilotsuz texnologiyalar əldə edirlər. Bunun həyacanlı nəticələri isə Avrasiyanın bu kiçik guşəsindən çox uzaqlara gedib çıxır. Məqalənin müəllifi Londonda mənzillənmiş texnologiya jurnalisti və məsləhətçi Devid Hamblinqdir.

Müəllif qeyd edir ki, Sovet İttifaqının dağılmasından sonra Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağda münaqişə alovlanıb. Ermənistan, Dağlıq Qarabağ regionu da daxil olmaqla Azərbaycan ərazilərinin bir hissəsini işğal edib. Amma ermənilər Dağlıq Qarabağda "dövlət" elan etsə də, beynəlxalq səviyyədə heç kim onu tanımayıb və region Azərbaycanın ərazisi kimi tanınır. Ermənistanla Azərbaycan arasında münaqişə isə, atəşkəs barədə razılaşmaya baxmayaraq, qaynamaqdadır. Məqalədə bildirilir ki, 2016-cı ildə münaqişə açıq toqquşmalara keçdi və o vaxt baş vermiş eskalasiya Azərbaycan ordusunun yeni tip silah - İsraildən alınan "Harop" pilotsuz zərbə aparatı və ya kamikadze-dron tətbiq etməsi ilə yadda qaldı. Həmin döyüşlər zamanı "Harop" ermənilərin bir çox hədəflərini, o cümlədən artilleriya qurğularını, hava hücumundan müdafiə sistemlərini və könüllüləri cəbhəyə gətirən avtobusu uğurla vurub. Xatırlanır ki, "Harop" dron-kamikadzeləri İsrailin IAI şirkəti tərəfindən Azərbaycana satılmışdı. O zaman rəqib "Aeronautics" şirkəti də öz kamikadze-dronlarını Azərbaycana sata bilmək üçün marketinq kampaniyası aparmışdı. Lakin İsrail hökuməti "Aeronautics" şirkətinin "Orbiter 1K" dronlarının ixracını 2 illiyə dayandırmışdı. 2019-cu ildə qadağa müddəti başa çatan kimi şirkət dərhal Azərbaycana 13 milyon dollarlıq dron satışına dair sövdələşmə bağladığını elan etdi.

Məqalədə deyilir ki, Azərbaycan "Orbiter" dronlarının lisenziyalı istehsalını da həyata keçirir və "Zərbə" adlı bu dronlar artıq silahlanmaya qəbul edilir. 2019-cu ildə Azərbaycan İsraildən "SkyStriker" dronlarını da alıb. O cümlədən, Azərbaycanın özü də dron istehsalını genişləndirir. 2018-ci ildə Azərbaycan şirkəti elan edib ki, müxtəlif ölçülərdə üç dron-kamikadzenin istehsalı üzərində işləyir. Bu dronlar hədəfi axtararkən 3 saat fasiləsiz havada qala, hədəfi aşkar etməsə bazaya geri qayıda bilər. Müəllif Ermənistanın da pilotsuz aparatlar əldə etmək və istehsalını təşkil etmək üçün cəhdlər göstərdiyini yazır. Amma bildirir ki, bu sahədə Ermənistan Azərbaycandan çox geridə qalır: "Dronlar bu tip münaqişələr üçün ideal yarayır. Onlar baha deyil, yüksək dəqiqliklə hədəfi vurur və pilotu risqə atmadan istifadə edilə bilər". Vaşinqtondakı yeni Amerika təhlükəsizlik Mərkəzinin əməkdaşı Samuel Bendett isə qeyd edir ki, pilotsuz kəşfiyyat və döyüş aparatlarının hərbi münaqişələrdə tətbiqi daha da sürətlənəcək:"Azərbaycan, Ukrayna, Qazaxıstan, Estoniya, Belarus kimi ölkələr artıq pilotsuz aparatlarının istehsalını həyata keçirdiklərini elan ediblər. Lakin bir çox kiçik ölkələr hazırda öz pilotsuz aparatlarını istehsal etsə də, NATO-nun bir çox üzvlərinin, o cümlədən Böyük Britaniya və Almaniya kimi ölkələrin bu cür taktiki hücum vasitələri çatışmır. ABŞ silahlı qüvvələri isə "Switchblade" pilotsuz döyüş sursatları ilə təchiz olunub, amma onların düşmən kamikadze-dronlardan effektiv müdafiəsi yoxdur. Pilotsuz uçan aparatlar-dronlar ucuz və effektiv döyüş vasitəsidir və Qafqazda hərbçilər bu cür pilotsuz sistemləri əldə etməklə öz imkanlarını xeyli gücləndirmiş olacaqlar". Yazıda o da bildirilir ki, Qarabağda yeni müharibə daha çox dron müharibəsi olacaq. Azərbaycanın mövcud imkanları isə onun Ermənistan üzərində mühüm üstünlüklər əldə etməsini təmin edəcək.

Hazırda Azərbaycanda müxtəlif PUA-ların istehsalı həyata keçirilir. İsraildən və əsas etibarı ilə də Türkiyədən yeni dronların alışına hazırlıq gedir. Artıq dəqiqdir ki, Azərbaycan ordusunun arsenalı tezliklə Türkiyənin milli istehsalı olan və Suriya, Liviya müharibələrində tətbiq edilərək dünyanın diqqətini özünə cəlb edən pilotsuz döyüş sistemləri ilə genişlənəcək. Bu sahədə artıq ilkin anlaşma əldə edilib və müdafiə naziri Zakir Həsənov yerli telekanallardan birində Türkiyədən pilotsuz döyüş sistemlərinin alınacağını təsdiqləyib. Azərbaycan qardaş ölkədən "Bayraktar", "Akıncı", "Kargu-2" kimi dronlarının alınmasına xüsusi maraq göstərir. Xüsusən sonuncu daha çox maraq daoğurur. Bu dronlar yerdən operator tərəfindən idarə olunur. Operator dronları istənilən obyektlərə, o cümlədən hərəkətli obyektlərə yönəldə bilər. Dronlar hədəfi məhv etməyibsə, sonradan yenidən istifadə üçün operatorun yanına qaytarıla bilir. Sahə üzrə məşhur amerikalı ekspert Jozef Trevitikin sözlərinə görə, bu pilotsuz uçuş aparatları düşmənin şəxsi heyətini və digər silahsız hədəflərini məhv etmək üçün qəlpəli, yüngül zirehli təhdidlərə hücum üçün kumulyativ, məhdud məkanda yerləşən hədəflərə qarşı isə termobarik döyüş başlıqları ilə təchiz edilə bilər. Bundan əlavə, pilotsuz vasitə stasionar hədəfləri məhv etmək üçün də istifadə edilə bilər. Pilotsuz istifadənin yarımavtonom rejimi "Kargu"nun hədəfləri müstəqil aşkar edib vura biləcəyini göstərir, operator isə yalnız onu müəyyən bir əraziyə göndərməlidir. Operator dronun hücumunu ləğv edə bilər və ya başqa bir hədəfə yönləndirə bilər. Yüngül zirehli texnikanın karvanları və konvoyları, adi yük maşınları və yüngül zirehli avtomobilləri, silah-sursat anbarları, təyyarə bazaları kimi obyektlər "Kargu" dronları tərəfindən rahatlıqla məhv edə bilir. Dron sürüsü ilə düşmən müdafiəsinin basdırılmasına və hədəflərin daha təsirli məhv edilməsinə nail olmaq mümkündür. Bunlar bir daha həmin aparatların mümkün Qarabağ müharibəsində effektiv istifadəsinə şərait yaradır.

Onu da qeyd edək ki, pilotsuz vasitələrinin geniş yayılması ilə əlaqədar hərbçilər bu məhsullarla mübarizə aparmaq üçün nəzərdə tutulan vasitələrə ciddi maraq göstərir. Bu, Azərbaycan ordusuna da aiddir. Ermənistandan fərqli olaraq, qeyd edilən istiqamətdə də Azərbaycan mühüm addımlar ata bilib. Artıq Azərbaycanın Belarusun "Radar" KB sənaye şirkətinin istehsal etdiyi "Qroza-S" PUA ilə mübarizə kompleksinin istifadəçisi olduğu heç kimə sirr deyil. "Qroza-S" PUA-lardan obyektləri qorumaq üçün hazırlanan özüyeriyən radioelektron mübarizə kompleksi təcrübədə özünü doğruldub. Azərbaycanın əldə etdiyi kompleks 6x6 şassisinə malik platformada qurulub. Ölkəmizin bu varianta üstünlük verməsi onun tətbiq ediləcəyi ərazilərin relyefi ilə bağlıdır. Şassidəki kabin daxilində idarəetmə və siqnal emal vasitələri yerləşir. "Qroza-S" kompleksi həm PUA-ların, həm də onları uçuşunu təmin edən yerüstü stansiyaların idarəetmə kanallarının aşkarlanmasını təmin edən bir sıra imkanlara malikdir. "Groza-S" stansiyasının Qarabağda ciddi perspektivləri mövcuddur, hətta rəqib ölkələr belə bu stansiyanın imkanlarını yüksək dəyərləndirir. Bu texnika qısa müddət ərzində müəyyən edilən istənilən koordinatlara hərəkət edərək orada yerləşə və funksiyalarının avtonom yerinə yetirilməsinə başlaya bilər. Münaqişə zonasında müxtəlif sinif və tiplərə aid PUA-ların neytrallaşdırılmasında onlar Azərbaycan ordusuna mühüm üstünlüklər qazandıracaq. Düzdür, Ermənistanda onsuz da hansısa təhlükə yaradan bilən dron da mövcud deyil. Lakin istənilən halda, Azərbaycan işini burada da ehtiyatlı tutur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Erməni faşizminin dünyaya təhdidi artır - Paşinyanın konstitusiya dəyişikliyi üçün simvolik bir tarix seçməsi də diqqətdən qaçmadı

**Ermənistanda çiçəklənməkdə olan faşizmin bu ölkənin özü üçün də ciddi təhdid mənbəyi olması artıq daha açıq etiraf edilir. Erməni ekspert Mihran Akobyanın dedikləri də bunun təsdiqi sayıla bilər.**

O, ölkədə qurulan diktatura rejimi, bunun üçün edilən konstitusiya dəyişiklikləri fonunda bildirir:"Nikol Paşinyanın iyunun 22-də, faşist hücumu günündə konstitusiya çevrilişinə getməsi çox simvolikdir".

O qeyd edib ki, Paşinyan və onun cinayət yoldaşları 1941-ci ilin bu günlərində Hitler və onun adamyeyənlərinin sahib olduğu eyni özünəinama və sinizmə sahibdir:"Bu prosesin sonu da məlumdur: "Berlin talanı" və "Nürnberq mühakiməsi". Təkrar edirəm, konstitusiya çevrilişinin bütün iştirakçıları qulaqlarına sırğa etməlidirlər ki, hakimiyyətin ələ keçirilməsinə görə məsuliyyətə cəlb olunacaqlar. İnanın, bunlar boş sözlər deyil. Qoy konstitusiya çevrilişinin bütün iştirakçıları indi "Nürnberq mühakiməsi"nin kadrlarına baxsınlar və özləri-özlərinə acısınlar".

Ermənistandan kənarda da bu ölkədə faşizmin çiçəklənməsindən duyulan narazılıq artır. Məsələn, Rusiyanın Vladimir şəhərində "Stopfaşizm" vətəndaş təşəbbüsünün üzvləri şəhər meriyasına müraciət edərək İkinci Dünya müharibəsində faşistlərlə əməkdaşlıq etmiş Qaregin Njdenin Vladimir həbsxanasının qəbiristanlığında boş məzarının yığışdırılmasını təklif edib. Təşəbbüsün üzvləri bildirib ki, Njdenin boş məzarı son illərdə erməni diasporunun nümayəndələri tərəfindən ildə bir neçə dəfə anım məqsədilə ziyarət olunur. Qeyd olunub ki, Njdenin boş məzarı faşizmin qəhrəmanlaşdırılması baxımından istifadə olunur. Bir daha qeyd edək ki, Njde İkinci Dünya müharibəsinin sonunda SSRİ xüsusi xidmət orqanları tərəfindən ələ keçirilmiş və faşistlərlə əməkdaşlığını etiraf etmişdi. Törətdiyi cinayətlərə görə Vladimir şəhər həbsxanasına göndərilən Njde ölümündən sonra həbsxana ərazisində dəfn edilmişdi. 1980-ci illərdə bir qrup şəxs onun qalıqlarını Ermənistana aparmışdı. Amma Vladimir həbsxanasının qəbiristanlığında boş məzarı hələ də durur. Bu isə artıq etirazlar yaradır. "Stopfaşizm" üzvləri xatırladıb ki, 2019-cu ildə Rusiyanın Armavir şəhərində erməni kilsəsinin ərazisində Njdenin xatirə lövhəsi yerli deputat tərəfindən qara rənglə boyanmış, daha sonra ictimai etirazlar nəticəsində lövhə sökülmüşdü. Qeyd edək ki, abidə ilə bağlı proseslər Azərbaycanın bu məsələni qabartmasından sonra aktuallaşdı. Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyev ötən ilin oktyabr ayında MDB Dövlət Başçıları Şurasının iclasında müharibə illərində Azərbaycan xalqının rolunu, MDB liderlərinin dəfələrlə faşistlərin qəhrəmanlaşdırılmasına qarşı çıxış etdiklərini xatırlatmışdı:"Təəssüf ki, MDB məkanında, xüsusilə də Ermənistanda belə hallar baş verir. Əvvəlki hakimiyyət tərəfindən Yerevanın mərkəzində Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş faşist cəlladı və satqın Qaregin Ter-Arutyunyana abidə qoyulub".

Ermənistan baş naziri Nikol Paşinyanın faşist əlaltısını "erməni milli lideri" kimi təqdim etməsini isə Kreml və Rusiya ictimaiyyəti qəbul etmədi. Onun bu faşist nökərini keçmişdə bolşeviklərə qarşı mübarizə aparan antikommunist kimi təqdimatı da iflasa uğradı. Bundan sonra isə Paşinyanın babasının da faşistlər tərəfində yer aldığı üzə çıxdı. Belə ki, müharibə illərində 1913-cü il təvəllüdlü Nikolay Paşinyan müəyyən müddət itkin düşmüş sayılıb. Sonra məlum olub ki, o, düşmən tərəfə keçib. Ermənistanın baş nazirinin babası Qaregin Njdenin başçılıq etdiyi SS legionunun heyətinə daxil olub, yəni nasist Almaniyası uğrunda döyüşüb. Baş verənlərə yenidən nəzər salan ABŞ-ın "News Blaze" nəşri də faşizmin Ermənistanda təzahürünü təhlükəli hal sayır:"Ermənistanda ən "tanınmış" müharibə qəhrəmanlarından biri olan Qaregin Njde, həm də daşnakların lideri və "Hitleryugend"in (Alman Milli-Sosialist Fəhlə Partiyasının gənclər təşkilatı) nümunəsi olaraq yaradılan və nasistlərin ari üstünlüyü nəzəriyyəsini əks etdirən erməni milli və irqçi ideologiyası olan "seqakronizm"in banisi idi. Nəticə etibarilə təəccüblü deyil ki, Njde on minlərlə erməni əsgərindən ibarət olan və Krım, Qafqaz,




Polşa və Fransada nasist döyüşlərində iştirak edən Vermaxtın erməni legionuna rəhbərlik edirdi. Onlar, həmçinin yəhudilərin sürgün edilməsini dəstəkləyir, nasistlərə yəhudiləri əsir düşərgələrinə göndərməkdə yardım edir, həm də müqavimət hərəkatı döyüşçülərinə qarşı mübarizədə iştirak edirdilər.

**Njdenin cinayətkarlığına bilərəkdən göz yuman Ermənistan onu açıq şəkildə "milli qəhrəman" kimi şöhrətləndirməkdə davam edir. Antisemitizm Ermənistanda, həmçinin dünya ölkələrində mövcud olan erməni icmalarında geniş yayılan problemdir. Yəhudilərə münasibətdə antisemitizmə və dözülməzliyin digər formalarına qarşı çıxış edən Amerika yəhudi qeyri-hökumət ictimai-siyasi hüquq müdafiə təşkilatının - Antidiffamasiya Liqasının "Qlobal indeks 100" tədqiqatının nəticələrinə dair hesabatda qeyd edilir ki, ermənilərin əksəriyyəti dərin antisemit əhval-ruhiyyədədir ki, bu saya görə də ermənilər Avropada antisemit millət hesab olunur". Bu fonda hesab edilir ki, dünya artıq baş verənlərə daha sərt reaksiya göstərməlidir.**

***Nahid SALAYEV***

# Hökumət üzvlərinin küçədə maska paylamasının mənası(sızlığı) - Paşinyan hökumətinin hərəkətlərini Azərbaycana nümunə çəkənlərə cavab...

**Cənubi Qafqazda pandemiyanın ən çox yayıldığı Ermənistandır. Bu ölkədə koronavirusla mübarizə sahəsində heç bir əsaslı tədbir görülmür, aparılan "mübarizə tədbirləri" isə kosmetik xarakter daşıyır və "şou" şəklində həyata keçirilir.**

***Fatimə Hacıbəyli:*** *"Azərbaycanda hökumət pandemiya ilə mübarizə sahəsində öz üzərinə düşən vəzifəni artıqlaması ilə yerinə yetirir, Ermənistan hökuməti isə özünün əsas vəzifəsinin icrasını maska paylamaqda görür"*

Paşinyan hökumətinin üzvləri isə mübarizə tədbirləri görmək əvəzinə, küçələrdə "şou" göstərməklə məşğul olur, öz üzərlərinə düşən vəzifəni İrəvan küçələrində əhaliyə maska paylamaqla bitmiş hesab edirlər.

Erməni mediasının yaydığı məlumata görə, Ermənistan hökumətinin üzvləri İrəvan küçələrində yoldan keçənlərə maskalar paylayır. Əhaliyə yox, məhz yoldan keçənlərə.

Bildirilənə görə, Ermənistanın Baş naziri Aparatının rəhbəri Eduard Agajanyan, Ermənistanın Təhsil, elm, mədəniyyət və idman naziri Araik Harutyunyan, Ermənistan Respublikası İqtisadiyyat nazirinin müavini Varos Simonyan, Yüksək texnologiyalar sənayesi naziri Hakob Arşakyan, Ermənistan Respublikası Maliyyə nazirinin müavini Armen Hayrapetyan, Səhiyyə naziri Arsen Torosyan və digər rəsmi şəxslər vətəndaşlara tibbi maskalar paylayır, maskalı vətəndaşlara geyindikləri üçün təşəkkür edirlər.

Əslində, bu bir görüntüdür və Ermənistan hökuməti virusa yoluxan əhalini müalicə etmək əvəzinə, özlərini göstərməklə məşğuldur, guya ki, bunlar iş görürlər. Halbuki, maska paylamaq onların deyil, könüllülərin işidir. Necə ki, bu proses Azərbaycanda gedir, müxtəlif dövlət və ictimai qurumları təmsil edən gənclər paytaxt Bakıda və bölgələrdə əhaliyə maksa paylayır, polis də bu istiqamətdə işlər görür. Yeri gəlmişkən, bəzi insanlar Ermənistan hökumətinin üzvlərinin küçələrdə maska paylamaq kimi mənasız, görüntü xarakteri daşıyan bu işin Azərbaycanda da tətbiq edilməli olduğunu, "bizdə niyə belə deyil" deyirlər.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində qeyd etdi ki, ümumiyyətlə, bu yanaşmanın və müqayisənin özü düzgün deyil. "Birincisi, pandemiya ilə mübarizə məsələsində Azərbaycanla Ermənistanın müqayisə edilməsinin özü doğru ola bilməz. Çünki pandemiyanın ilk təsirləri dünyada hiss ediləndə Azərbaycan dövləti, Prezident İlham Əliyev respublika ərazisində qabaqlayıcı tədbirlər görülməsi ilə bağlı göstərişlər verdi və dövlətin müvafiq qurumları tam olaraq virusla mübarizəyə səfərbər olundular. Bu gün, həmçinin, Azərbaycanda maska zavodları, fabriklər fəaliyyət göstərir, apteklərdə maskanın qiyməti hər bir vətəndaşın büdcəsinə uyğun səviyyədədir. Bir sözlə, Azərbaycanda bu istiqamətdə kifayət qədər iş görülüb. Ermənistanda isə indiyə qədər hökumət pandemiyaya və onun fəsadlarına barmaqarası baxıb, pandemiya ilə mübarizə tədbirləri həyata keçirməyib. Bu gün Ermənistan hökuməti üzvlərinin, ölkənin Baş nazirinin aparat rəhbərinin, eləcə də nazirlərin əhalinin virusdan mühafizə, müdafiə olunması istiqamətində köklü işlər görmək əvəzinə, küçədən keçənlərə maska paylaması doğrudan da gülünc və gülməlidir. Bu mənasız işdir. Belə görürəm ki, bu ölkənin ictimai qurumları, gəncləri hökumətin pandemiya ilə bağlı yarıtmaz fəaliyyətinə etiraz edərək könüllülük işinə maraq göstərmirlər, könüllülər əvəzinə, küçəyə Baş nazirin aparat rəhbəri və nazirlər çıxıb maska paylayırlar. Bu, erməniləri maska taxmağa təşviq etmək baxımından keçirilən bir aksiya olsa da, mənasız bir addımdır. Paşinyan az qala maskanı ağzından çıxarmır və videoformatda keçirilən görüşlərdə də kompyuter qarşısında ağzı maskalı oturur. Gərək onda bütün Ermənistan əhalisi Baş nazirdən nümunə götürüb maska taxaydı. Burada söhbət maska taxmaqdan getmir. Ermənistan əhalisi maska taxsa belə, xeyri yoxdur, çünki ölkədə hər on-on beş adamdan biri virusa yoluxub və virusa yoluxanlar da müalicə olunmur, onlara heç bir nəzarət həyata keçirilmir. Ermənistan hökuməti təmsilçilərinin pərakəndə, plansız şəkildə koronavirus pandemiyasına yanaşması nəinki bölgəni, eləcə də bütün dünyanı risq altında qoyur. Ermənistan hökuməti öz məsuliyyətsiz davranışlarından nəticə çıxarmaq əvəzinə, təmsilçilərini küçələrə maska paylamaq üçün göndərir. Bu "şou" ilə bu ölkənin hökuməti yeni pullar qoparmaq üçün humanist donuna girib. Amma bu mümkünsüzdür. Azərbaycana gəlincə, bilirsiniz ki, bizim ölkədə maska ilə bağlı heç bir problem yaşanmır. Apteklərdə əsasən yerli istehsal olan maskalar əhalinin cibinə uyğun qiymətə satılır. Bundan başqa da ölkəmizdə mövcud olan könüllülər hərəkatı bu prosesdə yaxından iştirak edir, onlar yollarda, parklarda, meydanlarda, eləcə də ictimai nəqliyyatda əhaliyə maska paylayırlar. Bir sözlə, Azərbaycanda hökumət pandemiya ilə mübarizə sahəsində öz üzərinə düşən vəzifəni artıqlaması ilə yerinə yetirir, lazımi tədbirlər görür, əhalinin virusa yoluxmaması üçün mübarizə tədbirlərini gücləndirir, eyni zamanda da əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində proqram xarakterli ardıcıl addımlar atır.

**Ermənistan hökuməti isə özünün əsas vəzifəsinin icrasını maska paylamaqda görür. Ölkəmizdə müxtəlif qurumları təmsil edən könüllülər əhaliyə maska paylayırlar, Ermənistanda isə hökumət təmsilçiləri bu işi görür. Ermənistan hökumətinin bundan başqa əlindən başqa heç nə gəlmir" - deyə F.Hacıbəyli qeyd etdi.**

***İradə SARIYEVA***



*"Ölkəmizdə müxtəlif qurumları təmsil edən könüllülər əhaliyə maska paylayırlar, Ermənistanda isə..."*

# Azərbaycan dünya dövlətləri arasında pandemiyadan daha az zərər çəkən ölkələr sırasında...

**Hələ də səngiməyən koronavirus pandemiyası dünya iqtisadiyyatını sarsıtmaqda davam edir. Verilən proqnozlar pandemiyanın qlobal iqtisadiyyat üçün mənfi nəticələrinin gözlənildiyindən də yüksək olduğunu üzə çıxarır.**




Ümumdünya Ticarət Təşkilatının (ÜTT) son hesabatında bu fonda bildirilir ki, bu ilin ilk rübündə koronavirus pandemiyası ilə əlaqədar qlobal ticarət 3% azalıb. Amma ikinci rübdə azalma rekord həddə - 18,5% təşkil edə bilər:

"Hazırda müşahidə etdiyimiz ticarətin tənəzzülü tarixən ən böyüyüdür. Bəlkə də bu günə qədər olan ən kəskin azalma yaşandı. Ancaq müsbət məqam budur ki, hər şey daha da pis ola bilərdi. Hazırda qəbul edilən siyasi qərarlar pandemiyanın istehsal və ticarətə təsirini azaltmaq üçün çox vacibdir. İstehsal və ticarətin 2021-ci ildə sürətlə bərpa olunması üçün maliyyə, pul və ticarət siyasəti eyni istiqamətdə hərəkət etməlidir". Beynəlxalq kredit reytinqi agentliyi "Moody's" pandemiyanın təsiri ilə bu il dünyanın ən böyük iqtisadiyyatlarının ciddi zərər gördüyünü bildirir. Qurum "Böyük iyirmiliyə" daxil olan ölkələrin iqtisadiyyatlarının 4,6% kiçiləcəyini proqnozlaşdırır. Bu il ABŞ iqtisadiyyatının 5,7%, avrozona iqtisadiyyatının isə 8,5% kiçiləcəyi proqnozlaşdırılır. Çində də artıq iqtisadi geriləmə başlanıb.

Araşdırmalar bir çox ölkələrə nisbətdə Azərbaycanın iqtisadi itkilərinin daha az olacağını göstərir. Xüsusən də özəl sektora dövlət dəstəyi nəticəsində Azərbaycanın itkilərinin daha az olması, gələn il isə dinamik iqtisadi artımın olması gözlənilir. "Moody's" növbəti ildə ölkəmizdə ən azı 3 faizlik iqtisadi artım proqnozlaşdırır. Burada özəl sektora dəstək yenə mühüm əhəmiyyət kəsb edir. Bu arada özəl sektor üçün hökumət yeni mühüm addımlar atır. Məsələn, pandemiya dövründə müvəqqəti vergi rejiminin qəbulu nəticəsində verginin "0" dərəcəsində tutulmasının əhatə dairəsi genişləndirilir. Artıq müvəqqəti vergi rejiminin əhatə dairəsi bir sıra yeni sahələrdə müəyyənləşdirilib. Məsələn, əmlak və torpaq vergisindən azadolmalar və mənfəət vergisindən güzəştlər müəyyənləşdirilib, sadələşdirilmiş sistem üzrə verginin azaldılması təmin edilib. Bütövlükdə, sosial sığorta haqları ilə bağlı diferensasiyalar həyata keçirilib. Belə ki, bank sistemi üzrə kompleks dəstək tədbirləri nəzərdə tutulub. Bu, fiziki şəxslərin dəstəklənməsi, kredit ekspansiyası və maliyyə dayanıqlığının dəstəyi üzrə tədbirlərdir. Sığorta sistemi üzrə də kompleks tədbirlər nəzərdə tutulub və artıq kapital bazarlarına dəstək tədbirlərində həyata keçirilməsinə başlanıb. Bundan əlavə, dövlət 1 milyard manat kredit portfeli üzrə kreditlərin subsidiyalaşdırılması üçün 100 milyon manat vəsait nəzərdə tutub. Bu fonda sahibkarın götürdüyü kreditin 10 faiz bəndi Sahibkarlığın İnkişafı Fondu tərəfindən kredit təşkilatlarına ödəniləcək. Sahibkarlara digər dəstək isə yeni kreditlərin verilməsidir ki, bu istiqamətdə 500 milyon manat ayrılacaq.

Qeyd edək ki, pandemiya dövründə fəaliyyəti dayandırılan sahibkarlara ilk mərhələdə konpensasiyalar ödənilib. Dövlət Vergi Xidmətindən verilən məlumata görə, pandemiyadan zərər çəkmiş fərdi sahibkarlara maliyyə dəstəyi proqramının icrası çərçivəsində 80 milyon manat ayrılıb. Milli Məclisin deputatı Vüqar Bayramov da qeyd edir ki, Azərbaycan hökuməti tərəfindən hazırlanan iqtisadi paket sahibkarlara həm də kreditlər sayəsində dəstəyin nümayiş etdirilməsini nəzərdə tutur. Sahibkarlara dəstək iki formada həyata keçiriləcək:"Təsdiq olunmuş paketə əsasən, martın 10-dək pandemiyanın təsir etdiyi sektorlarda çalışan sahibkarların aldıqları kreditlərə 10 faiz subsidiya tətbiq olunacaq. Nəzərə alsaq ki, real sektorda orta kredit faizi 12 faizdir, bəzi hallarda bu 14 faizə çatır. Nəticədə alınan kreditin 14 faizi ilk faizlə alınıbsa, onun 10 faizini dövlət subsidiya edəcək, 4 faizini sahibkar qaytaracaq. Əgər 12 faizlə kredit alınıbsa, onun 10 faizini dövlət subsidiya edir, 2 faizini sahibkar ödəyəcək. Nəticədə bu, sahibkarın kredit xərclərinin azalmasına gətirib çıxaracaq. Söhbət 1 milyard manatlıq kreditə 10 faizlik subsidiyanın verilməsindən gedir. Bu istiqamətə 100 milyon manat vəsait ayrılacaq. Bu da imkan verəcək ki, sahibkarlar kredit öhdəliklərini pandemiya dövründə yerinə yetirməkdə çətinliklərlə rastlaşmasınlar. Sahibkarlara bu istiqamətdə həm də vergi güzəştləri tətbiq olunur. Bu da birbaşa sahibkarların xərclərini azaltmaq məqsədi daşıyır. Digər tərəfdən, sahibkarlara 500 milyon manatlıq güzəştli kredit təklif olunur ki, bunun da 60 faizinə dövlət zəmanət verəcək. Bu imkan verəcək ki, pandemiyanın təsir etdiyi sektorda çalışan sahibkarlar həmin güzəştli kreditlərdən birbaşa faydalana bilsinlər. Bu da onlara kredit əldə edərək öz fəaliyyətlərini genişləndirmək imkanı verəcək. İki formada tətbiq edilən kredit güzəştləri sahibkarların dövlət tərəfindən daha yaxından dəstəklənməsi məqsədi daşıyır. Onların kredit resurslarına çıxış imkanları, kredit xərclərinin azalmasına xidmət edir. Bu da ondan xəbər verir ki, pandemiya dövründə sahibkarların birbaşa dövlət maliyyəsi ilə yanaşı, onların xərclərinin azaldılması, eyni zamanda, kredit resurslarına çıxış imkanlarının artırılmasını özündə əks etdirən paket icra olunur".

**Xatırladaq ki, Azərbaycanda pandemiya ilə bağlı iqtisadiyyata ümumi dəstək paketi 3,5 milyard manat həcmindədir. Dövlətin borc strategiyasına əsasən xarici borcun bir hissəsinin daxili borcla əvəzlənməsi, hətta Asiya İnkişaf Bankı kimi investorların manatla borc verməsi isə Azərbaycanın indiki halda manevr imkanlarını artırır.**

***Ramil QULİYEV***

# Dil qaydalarımızın pozulmasına görə hüquqi məsuliyyət proseduru rəsmən başladı - Dilimizin əsas himayəçisi hansı dövlət orqanı olacaq? MŞ-nin də adı çəkilir...

**Azərbaycan dilini qorumaq hər bir vətəndaşın, KİV təmsilçilərinin, hüquqi və fiziki şəxslərin birbaşa vəzifəsi olsa da, təəssüf ki, bir sıra hallarda biz bunun əksini görürük. Dövlət dilinin norma və qaydalarının tətbiqi sahəsində ciddi qüsurlar mövcuddur. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunda 2013-cü ildə monitorinq şöbəsi yaradılıb.**

Həmin qurum dövlət dil normalarını pozanları aşkarlasa da, hüquqi mexanizm olmadığı üçün, onların cərimələnməsi reallaşmayıb.

Məlum olduğu kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb.

Bununla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 116.1-ci maddəsinə 533-1-ci bənd əlavə edilir. Bu maddə kütləvi informasiya vasitələrində (KİV) və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması hallarını nəzərdə tutur.

Belə ki, kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

Dilimizin əsas himayəçisi hansı dövlət orqanı olacaq?

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Sayalı Sadıqova "Bakı-Xəbər"ə bildirdi ki, bu sahədə cərimələrin tətbiqinin hüquqi cəhətdən tənzimlənməsi böyük fayda verəcək. S.Sadıqovanın sözlərinə görə, Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli Fərmanı var. O qeyd etdi ki, Prezidentin sözügedən Fərmanında "Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin yaradılması məsələsi xüsusi vurğulanıb. Həmin Fərmana əsasən, 30 iyul 2019-cu ildə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməkhaqqı fondunun müəyyən edilməsi haqqında

Nazirlər Kabineti qərar verib. Bu məsələyə də sözügedən mərkəzin nəzarət edəcəyini deyən S.Sadıqova hesab edir ki, dilimizin tətbiqinin mükəmməl şəkildə olmasına nail ola biləcəyik: "Prezidentin Fərmanı ilə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb. Amma hələ praktik olaraq həmin qurum fəaliyyət göstərmir. Proses pandemiya dövrünə düşdüyü üçün hələ bu istiqamətdə müəyyən işlər görülməyib. Həmin Fərmanda Monitorinq Mərkəzinin fəaliyyəti, işçi sayı, fəaliyyət istiqamətləri və sair öz əksini tapıb. Hələ bu quruma sədr təyin edilməyib. Sədr təyin edildikdən sonra qurum öz fəaliyyətinə başlayacaq. Dilimizin norma və qaydalarının düzgün şəkildə tətbiq edilməsinə səlahiyyətli qurum Monitorinq Mərkəzi olacaq. Bu yaxınlarda Monitorinq Mərkəzinin əsasnaməsində hansı istiqamətlərin olacağı Milli Məclisdə də müzakirə olundu. Gərək həmin qurumun əsasnaməsi hazırlansın, sədr təyin edilsin, sonra isə o tətbiqi işinə başlasın. Amma hələ başlamayıb. Əslində, qurum artıq fəaliyyətə başlamalıdır. 2018-ci ildən reklamlar, ədəbi dilin qorunması ilə bağlı problemlər, bu sahəyə nəzarət məsələsi müzakirə edilib və nəticədə qarara alınıb ki, Monitorinq Mərkəzi yaradılsın və bu sahəyə nəzarət etsin".

Monitorinq Mərkəzində Dilçilik İnstitutunun da təmsilçiliyinin olacağını deyən S.Sadıqova qeyd etdi ki, sənəddə də Dilçilik İnstitutunun direktorunun bu işdə nəzarətçi kimi iştirak etdiyi əks olunub. S.Sadıqovanın bildirdiyinə görə, Monitorinq Mərkəzinin təyin ediləcək rəhbəri və 10 nəfər işçisi bu məsələyə nəzarət funksiyasını yerinə yetirəcək.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin şöbə müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Buludxan Xəlilov isə bizimlə söhbətində bildirdi ki, bu məsələyə Monitorinq Mərkəzi ilə yanaşı, Mətbuat Şurası da nəzarət etməlidir. "Dil dəyərdir. Özü də deyərdim ki, bütün dəyərlərin fövqündə dayanan dəyərdir. Ona görə də belə bir dəyərin imkanlarına kölgə salmaq, onun tələblərini pozmaq heç kəsi təmin edə bilməz, o cümlədən də Azərbaycan dilinin daşıyıcılarını və bu dilin sosial bazasında dayanan, danışan insanları. Təəssüflər olsun ki, Azərbaycan dilinin imkanlarını, onun həm praktik danışıq, həm də yazılı imkanlarını pozanlar çoxalır və günü-gündən artır. Kütləvi informasiya sahəsi isə dilin nümayişi, tətbiqi, dilin üzə çıxması, təbliği sahəsində bir örnəkdir. Bu baxımdan KİV sahəsində dillə bağlı qüsurlar daha tez nəzərə çarpır. Bu səbəbdən də Prezident İlham Əliyevim imzaladığı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun 116.1-ci maddəsinə 533-1-ci bəndin əlavə edilməsi təqdirəlayiqdir. Bildiyimiz kimi, bu maddə kütləvi informasiya vasitələrində (KİV) və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması hallarını nəzərdə tutur və burada konkret cərimə məbləği göstərilir. Hesab edirəm qanuna edilən bu dəyişiklik dəyər olan dilin praktik və tətbiq imkanlarını qorumaq üçün çox statuslu bir vasitədir, sənəddir. Bu mənada kütləvi informasiya vasitələrində, reklam daşıyıcılarında hüquqi və fiziki şəxslərin, vəzifəli insanların dilin tətbiqi məsələsinə düzgün riayət etməsi vacib bir məsələyə çevrilir. Belə ki, həm hüquqi, həm də fiziki şəxslər dilin tətbiqi imkanlarına düzgün əməl etməklə dili sevdirə, örnəyə çevirə biləcəklər, dilin potensialını, gücünü və imkanlarını üzə çıxaracaqlar. O ki, qaldı bu məsələyə nəzarət mexanizminin necə olmasına, fikrimcə, buna nəzarət mexanizmini həm Monitorinq Mərkəzi, həm də Mətbuat Şurası həyata keçirə bilər. Mətbuat Şurasında bir qrup yaradıla bilər ki, həmin qrupun üzvləri bu məsələyə nəzarət etsinlər. Bu nəzarətin günlük də, həftəlik də, aylıq da olması mümkündür. Tutaq ki, birgünlük, birhəftəlik, biraylıq nəzarət KİV-in həm qəzet-jurnal, həm də televiziya və radio qoluna ola, dilin normalarını, qaydalarını pozan, qüsura yol verən KİV-ə pozuntularla bağlı müvafiq sənəd göndərilə və cərimələr tətbiq oluna bilər. Deyim ki, bu, beynəlxalq təcrübədə tətbiq olunan bir ənənədir. Buna ona görə ənənə deyirəm ki, artıq dünyada cərimələnmə ənənəsi tətbiq olunur. Məsələn, Baltikyanı ölkələrdə uzun illərdir bunu tətbiq edirlər. Onlar bununla da dil qaydalarının pozulmasının qarşısını alırlar. Dil bu gün (bütün dünya dillərinə aiddir - B.X.) iki cəhətdən öz işləkliyində təqiblərə məruz qalır. Birincisi, xaricdən. Belə ki, "hansı dil hansı dili üstələyəcək" baxımından dillər arasında rəqabət gedir. İkincisi isə daxildən olan təzyiqlərdir. Azərbaycan dili bu təzyiqlərin ikisini də yaşayır. Həm beynəlxalq dillərlə rəqabət prosesinə girir, artıq müxtəlif dillərdən Azərbaycan dilinə birbaşa siyasi, hüquqi, elmi əsərlər tərcümə olunur. Digər tərəfdən isə ölkənin daxilində dili düzgün tətbiq edə bilməyənlər dilə müdaxilə edirlər. Ona görə də heç birinə yol vermək olmaz. İndi elə bir əsrdir ki, dildə gedən siyasət düzgün qurulmasa, artıq rəqabət prosesinə dil tab gətirə bilməz, dil başqa dillərin təsiri altına düşə bilər. Ona görə də biz çalışmalıyıq ki, Azərbaycan dilində danışan və yazılı şəkildə istifadə edən onun imkanlarından düzgün bəhrələnsin. Bu səbəbdən həm hüquqi, həm fiziki, həm də vəzifəli şəxs bu məsuliyyəti hiss etsin. Belə olan təqdirdə Azərbaycan dili öz imkanlarını ortaya çıxaracaq və nəticədə dilimiz həm şifahi, həm də yazılı qolunu inkişaf etdirə biləcək".



***Sayalı Sadıqova:** ”...səlahiyyətli qurum Monitorinq Mərkəzi olacaq”*

***Buludxan Xəlilov:** ”Buna nəzarət mexanizmini həm Monitorinq Mərkəzi, həm də Mətbuat Şurası həyata keçirə bilər”*

Bu sahədə çox ciddi narahatlıq olduğunu qeyd edən B.Xəlilovun sözlərinə görə, bu narahatlıq ondan ibarətdir ki, həm küçə və bazarlarda reklamların dili qüsurludur, həm də KİV-in dilində böyük qüsurlar mövcuddur. B.Xəlilov vurğuladı ki, Prezidentin Sərəncamından irəli gələn proseslər tətbiq olunduqdan sonra Azərbaycan dilindən istifadə edənlərin məsuliyyəti artacaq və eyni zamanda, radioda, televiziyada, qəzet və jurnallarda peşəkar jurnalistlər dəstəsi yaranacaq. "Təsadüfi adamlar meydan ala bilməyəcək. Etiraf edək ki, bu gün radioda, televiziyada, qəzet və jurnallarda kifayət qədər qeyri-peşəkar çalışır. Onlar geyimləri, ədaları ilə özlərini nümayiş etdirir, dilin imkanları isə kənarda qalır. Beləliklə, dil sevilə bilmir, dil daxildə təqiblərə, təzyiqlərə məruz qalır. Mənə elə gəlir ki, qanuna edilən bu dəyişiklik məsuliyyətimizi daha da artıracaq və dildən istifadə edən hər bir vətəndaş öz məsuliyyətini dərk edəcək. Bu sənədin mahiyyətinə varmaq istəyirəm. Bu o demək deyil ki, hamı doğma ana dilini yüksək səviyyədə, mütəşəkkil qaydada, dilçi səviyyəsində bilməlidir. Bu mümkün deyil. Dilçi dilçi, jurnalist jurnalist, yazıçı yazıçı səviyyəsində bilir. Söhbət ondan gedir hər kəs öz sahəsində doğma ana dilini necə tətbiq edir? Budur məsələ. Bu gün Azərbaycan dilinin problemi dildə deyil, o dildən istifadə edənlərdədir. Mənə elə gəlir ki, bundan sonra dili tətbiq edənlər artıq öz məsuliyyətlərini dərk edəcəklər. Müntəzəm olaraq ayrı-ayrı KİV-də monitorinqlərin aparılması, cərimələrin tətbiq edilməsi isə artıq peşəkarların üzə çıxmasına şərait yaradacaq və nəticədə hər kəs öz məsuliyyətini hiss edəcək" - deyə B.Xəlilov vurğuladı.

***İradə SARIYEVA***

# Bankların qabağı koronavirus üçün ən risqli yerlərə çevrilməyə başlayır - onlayn növbəlik tətbiq olunsa...

**Son aylar ölkə ərazisində xüsusi karantin rejimi ilə bağlı bir sıra xidmət sahələrində növbələr yaranıb. İnsan kütləsinin qapalı məkanlarda toplanmasının qarşısını almaq məqsədilə müştərilər mərkəzlərə növbəli şəkildə buraxılır.**




***Əkrəm Həsənov:*** *"Banklarda onlayn növbəliyi təmin etmək üçün müəyyən texniki təminat lazımdır"*

Ən çox növbələrin olduğu xidmət sahələrindən biri də kommersiya banklarıdır.

Danılmaz faktdır ki, sərt karantin rejimi tətbiq olunmazdan əvvəl ən çox sıxlığın müşahidə edildiyi yerlərdən biri də bankların qarşısı idi. Bankların qarşısında növbə gözləyən insanlar nə maska taxır, nə də sosial məsafəni gözləyirdilər. Sosial məsafə və maska taxılmamasının nəticəsində son günlər koronavirusa yoluxanların sayı günü-gündən artır. Bu səbəbdən də banklarda onlayn növbənin tətbiq olunması təklif olunur.

Bank sahəsi üzrə ekspert Əkrəm Həsənov bildirdi ki, banklarda onlayn növbəliyi təmin etmək üçün müəyyən texniki təminat lazımdır: "Bunun reallaşması üçün müəyyən proqramlar həyata keçirilməlidir. Ancaq bizim bank sektorunun onlayn növbəliliyi təmin etmək üçün xüsusi proqramları yoxdur, bu gündək o sistemlə işləməyiblər. "ASAN xidmət"lə əməkdaşlıq nəticəsində o proqramları hökumət hazır alaraq banklara ötürə bilər. Burada böyük problem yoxdur, sadəcə, problem ondadır ki, hətta "ASAN xidmət"də belə müəyyən qədər resurs cəlb edilməsinə, növbəliyin təminatında kömək olunmasına baxmayaraq, sıxlıq olur. Çünki bəzi insanlar vaxtından əvvəl gedirlər. İnsanlarımız bu məsələdə daha diqqətli olmalıdırlar. Bu, bir az da mental məsələdir, cəmiyyətin davranış məsələsidir. Amma yenə də mümkün bütün imkanlardan istifadə edərək, növbəlik prinsipini də təmin etmək olar. Bunu təmin etmək elə də çətin deyil, İT sahəsidir. Lakin proqram təminatının yaradılmasının nə qədər vaxt alacağını bilmirəm. Bankların xidmətinə tələbat nisbətən daha çox olur".

*"...o zaman nisbətən bu istiqamətdə mövcud olan problemlər aradan qalxar"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, pandemiyanın nə vaxt bitəcəyi bəlli deyil. Ola bilər ki, ilin sonunadək, yaxud bir il bundan sonrayadək davam etsin. Ona görə də prosesə artıq start verilməlidir. Qısamüddətli dövrdə problemin həlli ancaq o zaman mümkün olar ki, banklarda vətəndaşları onlayn növbəlik prinsipi ilə qəbul etsinlər, bəlkə o zaman nisbətən bu istiqamətdə mövcud olan problemlər aradan qalxar.

***Günel CƏLİLOVA***

# Evdə koronavirusdan müalicə olunan xəstələr üçün arbidol və vitamin C problemi...

**Azərbaycanda koronavirus xəstələrinin sayı artır. Bu səbəbdən xəstəliyi yüngül formada keçirən xəstələrə TƏBİB evdə özünütəcrid şəraitində müalicə almağa icazə verir. Bu xəstəliyə yeni yoluxmuş və onu yüngül formada keçirənlər üçün bəzi preparatların qəbul edilməsi tövsiyə edilir.**




***Mətanət Cəfərova:*** *"Bunun əsas səbəbi insanların ajiotaj içində..."*

***Eyyub Hüseynov:*** *"Ölkədə dərman qıtlığının yaranmasının başqa səbəbləri də ola bilər"*

***Adil Qeybulla:*** *"...mütləq belə xəstələrin müalicəsi həkim tərəfindən aparılmalıdır"*

Koronavirusdan əziyyət çəkənlərin müalicəsi üçün lazım olan dərmanlar arbidol, vitamin C və maqnezium əleyhinə olan preparatlardır. Özünü narahat hiss edən insanlar evdə müalicəyə üstünlük verirlər. Ancaq son günlər apteklərdə adıçəkilən dərmanlar tapılmır. Vətəndaşlar bildirirlər ki, əksər aptekdə arbidol və vitamin C adlı dərman yoxdur. Halbuki, TƏBİB bütün apteklərə göstəriş vermişdi ki, adıçəkilən dərmanlar yetərincə olsun.

Qeyd edək ki, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) məlumatında deyilir ki, COVID-19 xəstəliyini yüngül simptomla və ya simptomsuz keçirən şəxslərin ev şəraitində təcridi və müalicəsi müzakirə olunur. Hazırda belə xəstələrin müşahidəsi və müalicəsi xüsusi rejimli tibb müəssisələrində aparılır. TƏBİB-in məlumatına əsasən, hava-damcı yolu ilə yoluxmuş xəstələrlə təmasda olan şəxslərin karantinə götürülməsində yeni qaydalar müəyyən edilib. Mayın 1-də təsdiqlənmiş "Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları" qərarına dəyişiklik yeni növ virusa "yoluxma sürətilə" bağlı müzakirəyə çıxarılıb. "Virusa yoluxma sürətinin artmasını nəzərə alaraq, bu dəyişikliyin COVID-19 xəstələrinin müalicəsinə tətbiqi Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müzakirə olunur. Son dəyişikliyə görə, xəstəliyi yüngül formada keçirən şəxslər, onların xüsusi tibb müəssisələrindən kənarda müalicə olunması mümkün hesab edildikdə, "müəyyən olunmuş qaydalara" riayət etməklə, yaşadıqları yerdə və ya olduqları yerdə təcrid oluna bilər və onların üzərində tibbi müşahidə həyata keçirilir.

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, istehsalçılar və yaxud idxalçılar süni olaraq defisit yarada bilərlər. Yəni dərman idxalçıları öz aralarında müəyyən razılığa gələrlər, qiyməti artırırlar: "Şübhəsiz ki, məqsədləri məhsulu, dərmanı bazardan azaldıb qiyməti artırmaq ola bilər. Ola da bilər ki, doğrudan da dünya bazarında bu dərmanlar azalıb, onları idxal etməkdə çətinlik var".

Həmsöhbətimiz onu da əlavə etdi ki, ölkədə dərman qıtlığının yaranmasının başqa səbəbləri də ola bilər.

Həkim Mətanət Cəfərova bildirdi ki, qeyd olunan dərmanlar daha çox parasetamoldur, vitamin D, vitamin C və eyni zamanda, virus əleyhinə təsir göstərən müəyyən qrup preparatlardır: "Bu və digər dərmanlara tələbatın artması, insanların daha çox bu dərmanlardan alması həmin preparatların tükənməsinə səbəb olub. Bəli, hazırda əksər aptekdə bu dərmanların qıtlığı müşahidə olunur. Hətta tapmaq belə mümkün deyil. Bunun əsas səbəbi insanların ajiotaj içində apteklərdən lazım olduolmadı, yaş fərqinə baxmadan, böyükdən-kiçiyə, yaşlıdan-uşağa müəyyən qrup dərmanları almasıdır".

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, koronavirusa yoluxmuş, yüngül simptomlu və simptomsuz xəstələrin evdə özbaşına müalicəsi düzgün deyil. Professorun sözlərinə görə, belə xəstələr evdə müalicə alsalar da, mütləq həkim nəzarətində olmalı, həkimin resepti əsasında dərman almalıdırlar: "Hər xəstəyə fərdi yanaşılmalıdır.

**"Bir koronavirus xəstəsi bu dərmanı qəbul edirsə, mən də həmin dərmandan alıb qəbul edim" yanaşması əks təsir göstərə bilər. Mütləq belə xəstələrin müalicəsi həkim tərəfindən aparılmalıdır. Dərman qəbulunda doza həddi var. Hərarət üçün istifadə edilən dərmanları da dozadan artıq qəbul etmək olmaz! Ona görə də mən bir həkim kimi koronavirus xəstələrinin evdə nəzarətsiz müalicəsini düzgün hesab etmirəm".**

***Günel CƏLİLOVA***

**Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində avtobuslarda sərnişinlərlə sürücünün fiziki təmasını istisna edən şəffaf arakəsmələr quraşdırılmalıdır. Nazirlər Kabinetinin qərarı ilə ictimai nəqliyyatda şəffaf arakəsmələrin tətbiqi vacibdir.**

# NK-nin avtobuslarda şəffaf arakəsmələr tələbinə hələ də tam əməl edilməyib...




Amma təəssüf ki, sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrində belə arakəsmələrə artıq az rast gəlinir. Pandemiyanın yayılma arealını minimuma endirmək məqsədi daşıyan bu qoruyucu arakəsmələr ya ümumiyyətlə yoxdur, ya da zədələnərək arakəsmə rolunu oynamaqdan çıxıb.

Analoji hal taksi kimi fəaliyyət göstərən avtomobillərdə də müşahidə olunur.

Koronavirusdan qorunmaq üçün ictimai nəqliyyatda şəffaf arakəsmələrin nə səbəbdən quraşdırılmadığını öyrənmək məqsədilə Bakı Nəqliyyat Agentliyinə müraciət etdik.

Agentliyin mətbuat katibi Mais Ağayev qeyd etdi ki, qaydalarla bağlı daşıyıcılara xəbərdarlıq edilib: "Biz daşıyıcılarla şəffaf arakəsmələrlə bağlı göstərişlər vermişik. Əməl etməyənlərə yenidən xəbərdarlıq olunur. Taksilərlə bağlı onu qeyd edim ki, şəffaf arakəsmələri olmayan taksilərə fərqlənmə nişanı verilmir".

***Bakı Nəqliyyat Agentliyi - Mais Ağayev:*** *"Şəffaf arakəsmələrin quraşdırılmasının vacibliyi barədə daşıyıcılara müraciət olunub"*

***Elməddin Muradlı:*** *"Qaydalara görə, bütün ictimai nəqliyyat növü olan avtobuslarda, eləcə də taksilərdə şəffaf arakəsmələr təmin edilməlidir"*

Nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlı bildirdi ki, avtobuslarda şəffaf arakəsmələrin quraşdırılması Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qaydalarda qeyd olunub. Bu qaydalara görə, bütün ictimai nəqliyyat növü olan avtobuslarda, eləcə də taksilərdə şəffaf arakəsmələr təmin edilməlidir. "Təmin edilmirsə, deməli, karantin rejimi qaydaları pozulur. Bu, inzibati məsuliyyət yarada bilər. Aidiyyəti qurumlar bu məsələyə xüsusi diqqət göstərməlidirlər. Bakı Nəqliyyat Agentliyinin (BNA) əməkdaşları təbliğat işini gücləndirsə, faydalı olar.

**Hər bir halda dünyanın bir çox ölkəsində şəffaf arakəsmə tətbiq edilmiş təcrübədir. Təcrübə yaxşı nəticə verdiyinə görə Azərbaycanda da belə arakəsmələrin tətbiq edilməsi barədə qərar verilib. Təbii ki, qərar verilibsə, əməl etmək lazımdır".**

***Günel CƏLİLOVA***

# Şirvan Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsi həbs edildi - korrupsiya faktı üzrə...

**Şirvan şəhər İcra Hakimiyyətinin Mənzil Təsərrüfatı İdarəsinin müdiri Eyyub Gülməmmədovun qanunsuz hərəkətləri barədə vətəndaşın müraciəti əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.**

Müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Eyyub Gülməmmədov xidməti vəzifəsinin icrası ilə əlaqədar İdarənin balansında olan Şirvan şəhəri, Nizami küçəsində yerləşən yataqxananın 35 kv.m sahəsi olan 2 otaqdan ibarət hissəsinin vətəndaşın adına sənədləşdirilməsi qarşılığında sonuncudan 3000 manat məbləğində pulu 22 iyun 2020-ci il tarixdə özünə məxsus avtomobildə rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb.

Eyyub Gülməmmədov tərəfindən qeyd edilən cinayət əməlinin törədilməsinə şübhələr üçün əsaslar müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Leriklilər ictimai nəqliyyat probleminin həlli üçün "möcüzə" gözləyir...




**Ölkə başçısı İlham Əliyevin hər bir Azərbaycan vətəndaşına diqqət və qayğı ilə yanaşmasının real təsdiqi sayılan "Xalqa xidmət etmək hər bir dövlət məmurun borcudur.**

Və dəfələrlə demişəm ki, mən Prezident kimi vəzifəmi bunda görürəm - Xalqa xidmət etmək. Məhz bu xidmət görə Azərbaycan əhalisi bizə çox böyük dəstək verir" fikirləri hər kəsə bəllidir. Eyni zamanda Prezident rayonlarda səlahiyyət verdiyi şəxslərdən, yerli vəzifə sahiblərindən də sıravi vətəndaşlara diqqətlə yanaşmağı, onları narahat edən problemlərin həllinə yardımçı olmağı tələb edir. Təəssüf doğuran hal odur ki, bəzi məmurlar ölkə başçının tapşırıqlarını yerinə yetirmək əvəzinə, ilk növbədə öz ciblərini düşünürlər. Dağlar diyarı Lerik rayonunda da məmurlar rüşvət almamış bir işə qol qoymurlar. Elə bunun nəticəsidir ki, indi rayonun kəndlərində illərlə üst-üstə yığılan həddi-hüdudu bilinməyən sosial problemlər tüğyan edir.

Hər şey bir yana qalsın, rayonda sovet dağılanı ictimai nəqliyyatın ləğvi əhalinin ən yaralı yeridir. Vəziyyət, sözün əsl mənasında, ara sürücülərə insafı- əqidəni belə unutdurub. Məcburiyyət qarşısında qalıb kənddən rayon mərkəzinə, eləcə də ətraf kəndlərə gedənlər sürücüyə bir manat əvəzinə on manat ödəməli olur. İşdir, sürücünün dediyi məbləği verməsən ünvanına istənilən təhqiredici söz eşidirsən. Beləcə, yiyəsizlik ucbatından rayonun kəndlərində avtobus marşrutları məsələsi indi əsl cəhənnəm əzabıdır.

Bəlkə də Lerikdən başqa Azərbaycanın heç bir yerində əhalinin belə problemi yoxdur. Buna baxmayaraq, rayon rəhbərlərinin başı özlərinə elə qarışıb ki, hələlik məsələni yoluna qoymaq barədə düşünmək belə istəmirlər. Yenə də ümid qalır ölkə rəhbərinə. Leriklilər dövlət başçısının xalqı üçün gördüyü misilsiz işlərə sevinir və inanırlar ki, Azərbaycanın hər yerində olduğu kimi, onların da ictimai nəqliyyat arzusu tezliklə həyata keçəcək, problem birdəfəlik aradan qalxacaq.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 101 (4232) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

25 İYUN 2020-ci il

www.baki-xeber.com

# Yadplanetlilərin mövcudluğu ilə bağlı yeni versiya...



**Nottingem Universitetinin alimlər komandası yadplanetli sivilizasiyanın mövcudluğu sualına yeni versiya ilə cavab verib.**

Digər planetlərdə şüurlu həyat formasının insan sivilizasiyası kimi inkişaf prosesindən keçdiyini ehtimal edərək alimlər kommunikasiyaya qadir yadplanetli sivilizasiyaların sayını təyin ediblər. Məlum olub ki, təkcə Süd Yolu qalaktikasında onların sayı 30-dan çoxdur və onların hamısı insana bənzərdirlər. Bu barədə Hightech.plus saytı xəbər verib. Yer kürəsindən kənarda ola biləcək şüurlu sivilizasiyaların saylarının qiymətləndirilməsi üzrə olan klassik üsul həyatın yaranması üçün lazım olan parametrlərin təxmini əhəmiyyət səviyyələrinə əsaslanır. Bu məsələdə 1961-ci ildə astronom Frank Drake tərəfindən təqdim edilmiş tənlik 7 faktor əsasında hazırlanıb və onlardan yalnız bəziləri müşahidə etmək mümkündür.

"Drake tənliyi əsasında əldə edilmiş nəticələrin göstəriciləri 0-dan bir neçə milyard arasında (yadplanetli sivilizasiyaların sayı) dəyişir. Bu, sözügedən suala konkret cavabın verilməsindən daha çox düşüncə üçün olan bir alətdir" - deyə Nottingem Universitetinin professoru bildirib. Nottingem Universitetinin alimlər komandasının bu mövzu ətrafında əldə etdiyi nəticələrdə konkret rəqəm qeyd edilib. "Əgər güman etsək ki, digər planetlərdə də həyat formasının inkişafı üçün Yer kürəsində olduğu kimi 5 milyard il lazımdır, deməli, bizim qalaktikamızda minimum onlarla aktiv sivilizasiya mövcuddur. İdeyanın əsas məğzi təkamülə nəzər yetirməkdir. Lakin bu halda söhbət, kosmik miqyasda olan təkamüldən gedir. Biz bunu astrobioloji Kopernik sərhədinin hesablanması adlandırırıq" - deyə professorlardan biri qeyd edib.

Korpernikin astrobioloji prinsipi (Nikolay Kopernikin şərəfinə adlandırılıb) özündə həyat formasının yaranması üçün lazım olan bütün düzgün şərtləri birləşdirir. Kimyəvi reaksiyalardan tutmuş, ulduzların yaranmalarına kimi. Bu halda əgər şüur təsadüfi və ya unikal şəkildə deyil, məhz nizamlanmış proses nəticəsində yaranıbsa, güman etmək olar ki, Süd Yolu qalaktikasında şüurlu sivilizasiyaların sayı 4-dən 211-ə qədərdir. Həqiqətə uyğun ola biləcək göstərici isə 36-dır. Bundan əlavə olaraq alimlər qeyd ediblər ki, həmin yadplanetli sivilizasiyalar xarici görünüşcə insana bənzəyə bilərlər. Təbii ki, bu sadəcə bir nəzəriyyədir. Buna baxmayaraq, yadplanetli sivilizasiyalar ilə kommunikasiya qurmaq mövzusunda sevinmək hələ tezdir. Bu tədqiqatın müəllifləri qeyd ediblər ki, ikitərəfli kommunikasiyanın mümkün olması üçün biz hələ 6120 il mövcud olmalıyıq. Alimlərin hesablamalarına əsasən, şüurlu sivilizasiyanın mövcud ola biləcəyi ən yaxın planet Yer kürəsindən 17.000 işıq ili uzaqlığında yerləşir.

## Koronavirusdan sağalan yaşlı insanlar gələcəkdə tez yorula, hətta hərəkətsiz qala bilər

**Koronavirusdan sağalan hər üç nəfərdən birinin ağciyərində qalıcı zədələr aşkarlanıb. "Milli.Az" xəbər verir ki, bu barədə məlumatı "Mirror" nəşri yayıb.**



Britaniyada koronavirus testi pozitiv çıxıb, sonradan sağalan 300 min pasiyentdən təxminən 100 min nəfərinin ağciyərlərində çapığa bənzər zədələr və ya toxumaların bir hissəsinin məhv olması aşkarlanıb. Həmçinin, bildirilib ki, koronavirus bəzi insanlarda sinir sistemini zədələyib və psixoloji problemlərə də səbəb olub. Britaniya Milli Səhiyyə Xidmətinin klinik direktoru Dr. Hilary Floyd yaşları 40, 50 və daha çox olub, koronavirusdan sağalan insanların gələcəkdə tez yorulmaq kimi problemlərlə üzləşəcəyini bildirib. Onun dediyinə görə, bəzi insanlarda şikəstlik belə yarana bilər. Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, bu günədək 9 milyondan çox insan koronavirusa yoluxub. Onlardan 474 min nəfərinin həyatını xilas etmək mümkün olmayıb.

## "Ağıllı" saatlar orqanizmin daxilində baş verənlər barədə məlumat toplayacaq

**Kaliforniya Universitetinin mühəndisləri adi "ağıllı" saatları güclü sağlamlıq monitorinqi sisteminə çevirə bilən nazik yapışqan plyonka hazırlayıblar.**

Sistem tərdə aşkar edilmiş kimyəvi indikatorları axtarır və real vaxt rejimində orqanizmin daxilində baş verənlər barəsində məlumat toplayır. "İctnews.az" bildirir ki, hazırda "ağıllı" saatlar qət edilmiş məsafəyə, yuxu vaxtına, nəbzin tezliyinə nəzarət edir. Yeni modellər hətta arterial təzyiq barəsində məlumat toplayır. Lakin hələ ki "ağıllı" saatlar bədənin kimyəvi tərkibinə nəzarət edə bilmir. Bunun üçün onlar orqanizmin mayelərində aşkar edilmiş biomarker molekullarını izləməlidir. Qlükoza və laktat kimi sağlamlığımızın yüksək spesifik göstəriciləri orqanizmdə maddələr mübadiləsinin nə dərəcədə yaxşı işlədiyini əyani göstərir. Tədqiqatçılar bu ehtiyacı təmin etmək üçün "ağıllı" saatın aşağı hissəsinə bərkidilən birdəfəlik ikitərəfli plyonka hazırlayıblar. Plyonka bədən tərində çox az miqdarda olan metabolit və müəyyən qidalı maddələri aşkar edə bilər. Komanda öz "ağıllı" saatını və sistemlə işləmək üçün mobil proqramını hazırlayıb. Tədqiqatçılar deyirlər ki, bu konsepsiya populyar "ağıllı" saat modellərinə tətbiq edilə bilər.

**Elan**

Əhmədov Mehman Əhliman oğlunun adına müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Gülbəniz Məzahim qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, M.Cəlal küçəsi, ev 56, mənzil 52 ünvanın çıxarışı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gün qarşınızda yeni imkanlar yaradır. Qərarları qəbul edəndə tərəddüd etməyin, qətiyyətli və iradəli olun. Təşəbbüskarlıq heç pis olmazdı. Macəralar aramayın, riskli işlərə başlamayın.



**Buğa** - Stereotiplərdən qurtulun. Davranışızda nəyisə dəyişməyə, yeni fəaliyyət sahəsini seçməyə risk edin. İmicin dəyişdirilməsində fayda var. Yeni şərait, orijinal ideyalar irəliyə doğru təkan ola bilər.



**Əkizlər** - Səmimi və qayğıkeş olun. Yaxın ətrafınızdakı insanlara həddən artıq inanmayın. Sadəlövh davranmayın. Ən yaxın saydığınız insan sizə özündən asılı olmayan səbəblərdən sərt sözlər deyəcək.



**Xərçəng** - Qarışıq, laübəli, mürəkkəb gündür. Tələskənliyə qapılaraq vurnuxma yaratmayın. Yaranan situasiyaya dürüst reaksiya verin. Qeyri-adi şəraitdə çaş-baş qalmayın, yaxın ətrafınızdakı insanların qəfil tələblərinə və istəklərinə diqqətli yanaşın.



**Şir** - Qarşınıza qoyduğunuz məqsədləri konkretləşdirin. İndiyədək həyata keçirməyə çalışdığınız, amma buna nail ola bilməyəcəyiniz ideyaları reallaşdırmaq zamanıdır. Ailə üzvləri, yaxınlarınız, yaradıcılıq həmfikirlərinizlə daha çox vaxt keçirin.



**Qız** - Ailədə baş verən hadisələr diqqət mərkəzində olacaq. Yeni ideyaların reallaşdırılması üçün əlverişli zamandır. Qonaq qəbul edərkən səmimi, gülərüz olun. Münasibətlərdə romantik və intriqanın süni təzahürünə can atmayın.



**Tərəzi** - Günün ümumi fonu əlverişlidir. Təmaslar, ünsiyyətlər, xəbərlər mübadiləsi üçün əlverişli gündür. Sizi qarşıda yeni təəssüratlar, fərqli hisslər və emosiyalar gözləyir. Harasa gecikməyiniz, mühüm olan nəyisə unutmağınız istisna deyil.



**Əqrəb** - Sövdələşmə, anlaşma, müzakirələr üçün pis zaman deyil. Hansısa addımı atmağa tərəddüd edirsinizsə, təcrübəli insanların məsləhətlərinə qulaq asın. Yaxın ətrafınızdakı insanları dinləyin, amma doğru saydığınızı edin.



**Oxatan** - Əsl istək və gerçək niyyətlərinizi dəqiqləşdirin. Əks təqdirdə enerjinizin əhəmiyyətli hissəsini yanlış istiqamətdə sərf etməli olacaqsınız. Bunun üçün çox düşünüb-daşınmayın, sürətli və qətiyyətli hərəkətlərə üstünlük verin.



**Oğlaq** - Yeni biliklər, məlumatlar və informasiyalar əldə etmək üçün əlverişli gündür. Daha geniş dünyagörüşünə malik romantik fərd olmağa çalışmayın. Adətən özünüzə yaxın buraxmadığınız şəxslər və adətlərə bu gün aludə olmağa dəyməz.



**Dolça** - İfrat yorğunluğa yol verməmək üçün fəaliyyətin optimal yolunu seçin. Yeni təəssüratlar və fikirləri qulaqardına vurmayın. İdeyaları müzakirə etmək olar. Yeni imkanlar yaranır. İndiki situasiyada həmin şanslardan yararlanmağa can atın.



**Balıqlar** - Nə etdiyinizə sonadək əmin olun. Səylərinizin effektivliyini azaltmayın. Planlarınız və niyyətlərinizi yaxşı tanımadığınız insanlara əyan etməyin. Əks təqdirdə naqolay situasiyaya düşə bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Koronavirusu səsə əsasən müəyyənləşdirəcəklər



**Braziliyada San Paulu Dövlət Universitetinin tədqiqatçıları koronavirusun yeni aşkarlanma üsulu üzərində işləyirlər.**

"Oxu.az" xəbər verir ki, koronavirusun əlamətlərindən biri olan tənəffüs problemini nitq analizi ilə tanıma sistemi yaradılır. Layihə latın dilində "nəfəs al" və ya "yaşa" mənasını verən "Spira" adlanır. Tənəffüs çatışmazlığı simptomu olan xəstəlik zamanı danışma tərzində xarakterik dəyişiklik yarana bilir. Məhz bu, alimlərə yeni ideyanı həyata keçirməyə əsas verib. "İdeya telefonda və ya kompüter monitoru qarşısında danışan insanın nəfəs problemi olduğunu tanımaqdan və təcili olaraq həkimə müraciət edib müayinədən keçməyin zəruriliyini göstərməkdən ibarətdir", - deyə, professor Marselo Barmaq bildirib.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.